RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 22 (8615) BAZAR, 31 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

Yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Ağdam rayonunda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılışı ilə bağlı Türkiyə Prezidentini təbrik edib.

Türkiyə Prezidenti təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları bu Mərkəzin fəaliyyətə başlamasının bölgədə uzunmüddətli sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

Telefon söhbəti zamanı noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının icra olunduğu məmnunluqla qeyd edilib.

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyi vurğulanıb.

Dövlət başçıları Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işlərində Türkiyə şirkətlərinin fəal iştirakından məmnunluqlarını bildiriblər.

Azərbaycan və Türkiyə prezidentləri, həmçinin pandemiyaya qarşı mübarizədə qarşılıqlı dəstəyin önəmini qeyd ediblər.

***Prezidentin Mətbuat Xidməti***



# Qələbənin nidası



## Mərkəz uzunmüddətli sabitliyin təmin olunmasına xidmət edəcək

Yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlətimizin başçısı Ağdam rayonunda Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması ilə əlaqədar Rusiya Prezidentini təbrik edib.

Rusiya Prezidenti təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları bu Mərkəzin fəaliyyətinin bölgədə uzunmüddətli sülhün və sabitliyin təmin olunması işinə xidmət edəcəyini vurğulayıblar.

Prezident İlham Əliyev və Prezident Vladimir Putin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəqliyyat-kommunikasiya bəndinin müddəalarının icrası ilə bağlı Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində keçirilən görüşün əhəmiyyətini qeyd ediblər.

Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya dostluq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik bildirilib.

***Prezidentin Mətbuat Xidməti***

## "Qarabağ Azərbaycandır və nida" deyən İlham Əliyev Qarabağa səfərləri ilə həmin nidanı qoydu

"...Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb..."

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev düşmən tapdağından azad edilən Füzuli şəhərinə üçrəngli şanlı bayrağımızı ucaldanda demişdi.

Bəli, 30 ildən sonra düşməni doğma torpaqlarımızdan qovduq və öz el-obamıza, dədə-baba yurdumuza qayıtdıq. Müqəddəs bayrağımızı bir daha enməmək şərtilə ucaltdıq. Və bunu qələbəmizin memarı İlham Əliyev etdi. Müzəffər Ali Baş Komandan doğma Qarabağımıza qalib xalqın qalib sərkərdəsi kimi qədəm qoydu. Özü də Ermənistanla üçtərəfli bəyanat imzalanandan 6 gün sonra...

### Şər qüvvələr məğlub, biz isə qalibik

İkinci Qarabağ savaşı başa çatandan bir neçə gün sonra, noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində oldular. Həmin gün Füzuli-Şuşa avtomobil yolunun da təməli qoyuldu.

Bu tarixi səfər bir çox aspektlərdən xüsusi önəm daşıyırdı. Səfər tarixi əhəmiyyəti, riskli olmağı ilə yanaşı, dünya birliyinə, Azərbaycan cəmiyyətinə bir sıra mühüm mesajlar da verirdi - Azərbaycan heç zaman işğalla barışmayacaq, bütün torpaqlarını azad edəcək, öz tarixi torpaqlarına sahib çıxacaq, yenidən bu yerlərdə həyat bərpa olunacaq.

Cəbrayıla gedərkən dövlət başçısı yol kənarına toplaşan insanları gördü və idarə etdiyi avtomobili saxlayaraq onlarla görüşdü. İşğaldan azad olunmuş bölgələrdə qəhrəman sərkərdəni qarşılayan qalib xalq öz sevgi və etimadını nümayiş etdirirdi. Prezidentin izdiham və sevgi ilə qarşılanması həm də ölkəmizdə yaşanan xalq-iqtidar birliyindən xəbər verirdi. Bu gün Azərbaycanda xalq-iqtidar birliyi ən yüksək səviyyədədir. Bu uğura Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Prezident İlham Əliyevin uğurla və böyük uzaqgörənliklə davam etdirdiyi siyasət nəticəsində nail olunub.

Sonra tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq anlar yaşandı - dövlət başçısı və birinci xanım Xudafərin körpüsünə gəldilər. Azərbaycan üçün xüsusi simvolik mənası olan, xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını Prezidentin yüksəltməsi qürur və fəxarət dolu görüntülər idi. Buranı ziyarət etməyin özü də ayrılıqda xüsusi simvolik məna daşıyırdı. Ölkə rəhbəri Azərbaycanın milli-mənəvi dəyərlərinə hər zaman sadiq qalacağını, mədəniyyət abidələrinə sahib çıxacağını və onları qoruyacağını ifadə edirdi.

Bu səfər eyni zamanda, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın daim xalqla yumruq kimi birliyinin, Azərbaycanın milli-mənəvi dəyərlərinə, mədəniyyət abidələrinə xüsusi önəm vermələrinin göstəricisidir.

***Ardı 6-cı səh.***

## Ağdamda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi açılıb

Ermənistan işğalından azad olunmuş Ağdam rayonunun ərazisində inşa edilən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yanvarın 30-da açılış mərasimi keçirilib.

Mərkəzin əsas məqsədi Azərbaycan və Rusiya prezidentləri, Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatın bəndlərinin və əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət etməkdir.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Azərbaycanın müdafiə naziri Zakir Həsənov, Türkiyə milli müdafiə nazirinin müavini Yunus Əmrə Karaosmanoğlu və Rusiya müdafiə nazirinin müavini Aleksandr Fomin iştirak ediblər.

Mərkəzdə yaradılan şəraitlə tanışlıqdan sonra Azərbaycan, Türkiyə və Rusiyanın Dövlət himnləri səsləndirilib.

Açılış mərasimində çıxış edən müdafiə naziri Zakir Həsənov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tam qələbəsi və ərazi bütövlüyünün bərpası ilə başa çatıb. Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatla atəşkəs rejiminə nail olunub və 30 ilə yaxın davam edən münaqişəyə son qoyulub.

"2020-ci il noyabrın 11-də Rusiya və Türkiyənin müdafiə nazirləri arasında imzalanan atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılması barədə memorandum xüsusi əhəmiyyət kəsb edir. Mərkəzin fəaliyyəti regionda uzunmüddətli sülhün və təhlükəsizliyin bərqərar olmasına öz töhfəsini verəcək. Əminik ki, Mərkəzdə türk və rus həmkarlarımız arasında dost və işçi münasibətlər yaranacaq", - deyə Azərbaycanın müdafiə naziri vurğulayıb.

Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin açılmasını sülhməramlı fəaliyyətdə mahiyyətcə yeni mərhələ adlandıran Rusiya müdafiə nazirinin müavini Aleksandr Fomin Türkiyə ilə qarşılıqlı fəaliyyət sahəsində böyük müsbət təcrübəyə malik olduqlarını bildirib.

O qeyd edib ki, atəşkəs rejiminə nəzarət üzrə Birgə Monitorinq Mərkəzinin yaradılması Rusiya və Türkiyənin Müdafiə nazirliklərinin sıx əməkdaşlığına və bölgədə sabit sülh üçün əlverişli şəraitin yaradılmasına xidmət edir: "Azərbaycan, bilavasitə dövlət başçısının rəhbərliyi ilə bu gözəl mərkəzin yaradılması və zəruri avadanlıqla təchiz olunması üçün çox böyük iş aparıb. Bu, bizim sülhməramlı fəaliyyətimizdə mahiyyətcə yeni mərhələdir".

Rusiyanın Türkiyə ilə qarşılıqlı fəaliyyət sahəsində böyük müsbət təcrübəyə malik olduğunu vurğulayan Aleksandr Fomin bildirib ki, Suriya ərazisində münaqişədən sonrakı nizamlama prosesində qarşılıqlı əməkdaşlıq buna gözəl nümunədir.

Həm rusiyalı, həm də türk hərbçilərinə müraciət edən Aleksandr Fomin deyib: "Bu torpaqlarda sülhün bərqərar olması üçün bütün zəruri tədbirlərin nə dərəcədə sürətlə və etibarlı görülməsi indi sizdən asılıdır".

***Ardı 5-ci səh.***

## Üzümçülüyün inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramının icra müddəti sona çatıb

### Nəticələr nədən xəbər verir

Prezidentin 2011-ci il 15 dekabr tarixli sərəncamı ilə təsdiq edilən və icra müddəti sona çatan "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı", həmçinin 2018-ci il 3 may tarixli sərəncamı ilə təsdiqlədiyi "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" ölkənin aqrar sektorunda üzümçülüyün inkişaf strategiyasını müəyyənləşdirən mühüm dövlət sənədləridir.

Bu proqramlarda Azərbaycanda üzümçülüyün yenidən genişləndirilməsi, innovativ texnologiya əsasında inkişafı, sənaye miqyasında istehsal edilən müxtəlif çeşidli üzüm məhsullarının daxili və dünya bazarlarına çıxarılmasının əsas istiqamətləri göstərilmişdir.

***Ardı 7-ci səh.***

## Ölkəmizdə koronavirusla bağlı müsbət tendensiya izlənilir

Dünyanın yeni növ koronavirusla mübarizəsi davam edir. Mütəxəssislərin araşdırmaları, həyata keçirilən məhdudiyyətlər və qadağalar hələ də bu qlobal bəlanı birdəfəlik dəf edə bilməyib. Dünyanın böyük, iqtisadiyyatı, səhiyyə sistemi yüksək inkişaf səviyyəsinə çatmış ölkələri belə, bu təhlükəli virusdan qurtulmayıb.

Ümumdünya Səhiyyə Təşkilatının açıqladığı statistika hər gün koronavirus qurbanlarının sayının artdığını göstərir. Virusa yoluxma sayına görə ilk beşlikdə olan dövlətlər ABŞ (26 512 193 nəfər), Hindistan (10 734 026 nəfər), Braziliya (9 119 477 nəfər), Rusiya (3 813 048 nəfər) və Böyük Britaniyadır (3 772 813 nəfər). Ümumilikdə isə, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada 102 635 172 nəfərdə koronavirus aşkarlanıb. Virusdan 2 216 418 xəstə vəfat edib, 74 329 275 nəfər sağalıb.

### Həyata keçirilən tədbirlər müsbət nəticəsini verir

Azərbaycanda indiyədək 229935 nəfər koronovirusa yoluxub. Bu təhlükəli virus səbəbindən 3119 nəfər həyatını itirib. Yoluxanlardan 222 553-ü sağalıb. Aktiv xəstə sayı 4263 nəfərdir.



Yaxşı haldır ki, ölkəmizdə koronavirusla bağlı müsbət tendensiya izlənilir. Həm yoluxma, həm də ölüm sayında azalmalar var. Bütün bunlar koronavirusa qarşı dövlət tərəfindən davamlı olaraq həyata keçirilən tədbirlərin, eyni zamanda, vətəndaşların üzərlərinə düşən vəzifələrinə məsuliyyətlə yanaşmalarının nəticəsidir.

***Ardı 8-ci səh.***

## Ermənistanda Paşinyanın fiziki məhvi üçün çağırışlar edilir

Ermənistanın müharibədə məğlubiyyəti, eləcə də ölkənin sosial-iqtisadi vəziyyətinin daha da ağırlaşması hakimiyyətin nüfuzunun xeyli aşağı düşməsinə səbəb olub. Sıravi ermənilər daha əvvəlki kimi Paşinyana etimad göstərməsələr də, müxalifətə də inanmırlar. Bununla belə ölkədə siyasi qarşıdurmanın, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin daha da kəskinləşməsi baş verir. Müxalifət Paşinyanın istefası tələbi ilə Yerevanda etiraz aksiyalarını davam etdirir.

Ermənistanın "Respublika" meydanında keçirilən növbəti mitinqdə etirazçılar hökumət binasına soxulmağa çalışsalar da, buna nail olmayıblar. Polis binanın bütün girişlərini bağlayıb. Ermənistan hökumətinin binasını ələ keçirməyə cəhd edən beş nəfər saxlanılıb. Ermənistan İstintaq Komitəsindən verilən məlumata görə, mitinq zamanı bir qrup şəxs icra orqanının binasını ələ keçirməyə çalışıb.

Hazırkı siyasi xaos fonunda Ermənistanda idarəçilikdə ciddi böhranlar baş verir. Bu da ölkənin daim mövcud olmuş ənənəvi problemlərini daha da dərinləşdirir. Belə ki, korrupsiya Ermənistanın bütün həyat sferalarında kifayət qədər dərin kök salıb.

***Ardı 8-ci səh.***

## Azərbaycan Respublikası Prezidentinin “Qeyri-dövlət mülkiyyətində olan xüsusi əhəmiyyətli mədəniyyət sərvətlərinin satılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2003-cü il 23 oktyabr tarixli 944 nömrəli, “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 2003-cü il 24 noyabr tarixli 4 nömrəli, “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2004-cü il 29 yanvar tarixli 16 nömrəli, “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2004-cü il 23 aprel tarixli 56 nömrəli, “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” 2005-ci il 28 dekabr tarixli 344 nömrəli, “Ailə kəndli təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər barədə” 2006-cı il 1 sentyabr tarixli 456 nömrəli və “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2007-ci il 6 fevral tarixli 529 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 944 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 549; 2006, № 9, maddə 743) ilə təsdiq edilmiş “Qeyri-dövlət mülkiyyətində olan xüsusi əhəmiyyətli mədəniyyət sərvətlərinin satılması Qaydası”nın 2-ci və 6-cı hissələrindən “və Turizm” sözləri çıxarılsın.

2. “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 noyabr tarixli 4 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 11, maddə 634; 2006, № 9, maddə 743; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 2-ci hissəsindən “və Turizm” sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 22; 2005, № 10, maddə 910; 2008, № 11, maddə 970; 2009, № 2, maddə 59, № 7, maddə 532, № 12, maddə 983; 2010, № 11, maddə 964; 2011, № 2, maddə 85, № 6, maddə 493; 2015, № 9, maddə 986; 2018, № 5, maddə 924; 2020, № 5, maddə 702) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə”nin 8.8-3-cü bəndindən “və Turizm” sözləri çıxarılsın.

4. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 aprel tarixli 56 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 236; 2006, № 9, maddə 743) 2.1-ci bəndi ləğv edilsin.

5. “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 344 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1113; 2006, № 9, maddə 743) 1.1-ci bəndindən “və Turizm” sözləri çıxarılsın.

6. “Ailə kəndli təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 1 sentyabr tarixli 456 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 734; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 4, maddə 536) 1.3-cü bəndindən “və Turizm” sözləri çıxarılsın və həmin bəndə “və yerli” sözlərindən əvvəl “, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi” sözləri əlavə edilsin.

7. “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 529 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 95) 2.2-ci bəndindən “və Turizm” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və “ASAN Viza” sisteminin yaradılması haqqında” 2016-cı il 1 iyun tarixli 923 nömrəli, “Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 12 iyul tarixli 985 nömrəli, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli, “Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 20 fevral tarixli 1252 nömrəli və “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci il 22 fevral tarixli 1255 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və “ASAN Viza” sisteminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1019; 2017, № 2, maddə 172, № 6, maddə 1099) 8-ci hissəsində “Mədəniyyət və Turizm Nazirliyi” sözləri “Dövlət Turizm Agentliyi” sözləri ilə və “Nazirliyin” sözü “Agentliyin” sözü ilə əvəz edilsin.

2. “Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1256; 2017, № 1, maddə 48, № 6, maddə 1073, № 10, maddə 1787; 2019, № 12, maddə 1945; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 noyabr tarixli 1188 nömrəli Fərmanı) 5-ci hissəsində “Mədəniyyət və Turizm Nazirliyi” sözləri “Dövlət Turizm Agentliyi” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2056; 2017, № 8, maddə 1521, № 10, maddə 1777; 2018, № 5, maddə 920, № 6, maddə 1196, № 7 (I kitab), maddələr 1496, 1506, № 11, maddə 2287; 2019, № 2, maddələr 218, 236, № 4, maddə 625, № 5, maddələr 848, 855; 2020, № 2, maddə 100, № 9, maddə 1148) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. “1. Qısa xülasə” hissəsinin altıncı abzasının üçüncü cümləsində “Mədəniyyət və Turizm Nazirliyi” sözləri “Dövlət Turizm Agentliyi” sözləri ilə əvəz edilsin;

3.2. “7. Strateji Hədəflər” hissəsinin 7.1.2-ci yarımbəndinin beşinci abzasında, “Tədbir 1.2.10: Ticarət festivallarının keçirilməsi” yarımbəndinin birinci abzasının birinci cümləsində, ikinci abzasının ikinci cümləsində, “Tədbir 1.2.13: Bakı şəhərindən hava yolu ilə digər regionlara bir və ya ikigünlük səyahət paketlərinin hazırlanması” yarımbəndinin birinci cümləsində, “Tədbir 1.4.1: Sahibkarlığa Kömək Milli Fondunun turizm sektoruna ayıracağı maliyyə vəsaitinə dair tədbirlər planının hazırlanması” yarımbəndinin ikinci abzasının ikinci cümləsində, “Tədbir 1.4.2: 2017-2020-ci illərdə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitindən istifadə üzrə təşviqat planının hazırlanması” yarımbəndinin birinci və üçüncü cümlələrində, “Tədbir 1.4.6: “Duty free” dükanları da daxil olmaqla məqsədli infrastrukturun formalaşdırılması” yarımbəndinin birinci cümləsində, “Tədbir 1.4.7: Məşhur brend mehmanxanaların Bakı şəhərində tikilməsinə şərait yaradılması” yarımbəndinin birinci cümləsində, 7.2.1-ci yarımbəndin ikinci abzasının üçüncü cümləsində, 7.2.2-ci yarımbəndinin “Tədbir 2.2.1: TRZ-lərin idarəetmə strukturunun yaradılması” yarımbəndinin birinci cümləsində, “Tədbir 2.2.2: TRZ-lərdə fəaliyyətin turizm klasterinə uyğun qurulması” yarımbəndinin birinci cümləsində, “Tədbir 2.2.3: TRZ-lərin inkişaf etdirilməsi” yarımbəndinin üçüncü cümləsində, “Tədbir 2.2.5: Yeni TRZ-nin yaradılması ilə bağlı təhlillərin aparılması” yarımbəndinin birinci cümləsində, “Tədbir 2.2.6: İllik inkişaf planlarının icrası üçün monitorinq mexanizminin yaradılması” yarımbəndində, 7.2.3-cü yarımbəndinin “Tədbir 2.3.1: İlk növbədə Bakı şəhərinin, daha sonra isə bütün ölkənin turizm təqviminin hazırlanması” yarımbəndinin birinci cümləsində, “Tədbir 2.3.3: Azərbaycan Respublikasında turizmin təşviqi siyasətində mövsümiliyi azaldan tədbirlərin və layihələrin xüsusi olaraq dəstəklənməsinin təmin edilməsi” yarımbəndinin ikinci cümləsində, 7.2.5-ci yarımbəndinin “Tədbir 2.5.1: 1.1-ci prioritetdə müəyyən edilmiş Bakı şəhərinin 2017-2020-ci illər üzrə marketinq və kommunikasiya planına paralel olaraq liberal hava nəqliyyatı üzrə razılaşmaların əldə edilməsi məqsədilə işçi qrupun yaradılması” yarımbəndinin dördüncü cümləsində, “Tədbir 2.5.5: Əsas hava yolları, kurort şəbəkələri və ya səyahət şirkətləri ilə strateji tərəfdaşlığın qurulması üçün müxtəlif variantların nəzərdən keçirilməsi” yarımbəndinin üçüncü cümləsində, 7.3.1-ci yarımbəndinin “Tədbir 3.1.1: Sağlamlıq turizmi üzrə 2017-2020-ci illəri əhatə edən fəaliyyət planının hazırlanması” yarımbəndinin birinci cümləsində, “Tədbir 3.1.2: Naftalan nefti əsasında mövcud və yeni sağlamlıq məhsullarının təşviqi” yarımbəndinin beşinci və altıncı cümlələrində, 7.3.2-ci yarımbəndinin “Tədbir 3.2.3: Regiondan olan turistlərin Azərbaycana axınını artırmaq məqsədi ilə qış turizm komplekslərində müxtəlif mövsümlərdə böyük və cəlbedici festivalların keçirilməsi” yarımbəndinin birinci cümləsində, 7.3.3-cü yarımbəndinin “Tədbir 3.3.1: Azərbaycanın şimal, şimal-qərb və qərb dəhlizləri boyunca bütün mədəni-tarixi görməli yerləri üzrə gündəlik-həftəlik avtomobil və piyada marşrutlarının tərtib edilməsi” yarımbəndinin ikinci abzasının birinci cümləsində, “Tədbir 3.3.2: “Böyük İpək Yolu” və digər mədəni turizm marşrutları üzrə bələdçilik etmək üçün sertifikasiya proqramının işlənib hazırlanması” yarımbəndinin birinci cümləsində, “Tədbir 3.3.4: Yeni mədəni turizm marşrutlarının təşviqi” yarımbəndinin birinci cümləsində, 7.3.5-ci yarımbəndinin “Tədbir 3.5.1: Azərbaycanın ekoloji turizm potensialının araşdırılması və milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili” yarımbəndinin birinci cümləsində, “Tədbir 3.5.2: Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi” yarımbəndinin birinci cümləsində, 7.4.1-ci yarımbəndinin “Tədbir 4.1.3: Azərbaycan Turizm və Menecment Universitetinin nəzdində yeni regional turizm peşə məktəblərinin yaradılması” yarımbəndinin birinci cümləsində, “Tədbir 4.1.4: Turizm sektoru üzrə peşə standartlarının və təhsil proqramlarının (kurikulumların) hazırlanması və turizm bələdçilərinin sertifikatlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi” yarımbəndinin birinci abzasında və ikinci abzasının ikinci cümləsində, “Tədbir 4.1.6: Turizm üzrə MBA proqramının yaradılması üçün tədbirlərin görülməsi” yarımbəndinin birinci cümləsində ismin müvafiq hallarında “Mədəniyyət və Turizm Nazirliyi” sözləri ismin müvafiq hallarında “Dövlət Turizm Agentliyi” sözləri ilə əvəz edilsin və 7.2.1-ci yarımbəndinin ikinci abzasının üçüncü cümləsinə “Nazirliyi” sözündən sonra “2018-ci ilin aprel ayından isə Dövlət Turizm Agentliyi” sözləri əlavə edilsin.

4. “Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 20 fevral tarixli 1252 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 196, № 4, maddə 549, № 6, maddə 1074; 2019, № 12, maddə 1945) 5-ci, 7-ci hissələrində və həmin Fərmanla təsdiq edilmiş “Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın 1.6-cı, 1.8-ci bəndlərində, 2.0.10-cu yarımbəndində, 3-cü hissəsində, 4.2.4-cü, 4.2.6-cı yarımbəndlərində və 6.9-cu bəndində ismin müvafiq hallarında “Mədəniyyət və Turizm Nazirliyi” sözləri ismin müvafiq hallarında “Dövlət Turizm Agentliyi” sözləri ilə əvəz edilsin.

5. “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 199; 2018, № 6, maddə 1236) 10.4-cü bəndindən və 11-ci hissəsindən “və Turizm” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları”nın təsdiq edilməsi barədə” 2007-ci il 11 aprel tarixli 564 nömrəli, “Yaşlı və gənc nəsil yazıçı, rəssam və bəstəkarların yaradıcılıq fəaliyyətini təmin etmək üçün xüsusi təqaüd fondu haqqında” 2007-ci il 6 avqust tarixli 612 nömrəli, “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2007-ci il 5 iyun tarixli 374-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” 2007-ci il 16 avqust tarixli 615 nömrəli, “Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə”nin təsdiq edilməsi barədə” 2008-ci il 20 iyun tarixli 773 nömrəli, “Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə” 2010-cu il 24 may tarixli 272 nömrəli, “Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” 2010-cu il 22 iyun tarixli 284 nömrəli və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə” 2011-ci il 15 fevral tarixli 382 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326; 2008, № 6, maddə 495, № 11, maddələr 969, 980; 2013, № 6, maddə 656; 2014, № 10, maddə 1176; 2016, № 2 (II kitab), maddə 243, № 3, maddə 457, № 8, maddə 1376; 2017, № 8, maddə 1521; 2018, № 2, maddə 208, № 9, maddə 1840; 2020, № 9, maddə 1140) ilə təsdiq edilmiş Əlavə 2 - “Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı”nın “Daşınar əmlakın rəsmi reyestrlərini aparan inzibati orqanların adları” sütununda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13-cü və 14-cü hissələrdən “və Turizm” sözləri çıxarılsın;

1.2. 16-cı hissədə “və Turizm Nazirliyi” sözləri “Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi (tabeliyindəki dövlət qoruqlarına münasibətdə), “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi (“İçərişəhər” Dövlət Tarix Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisinə münasibətdə)” sözləri ilə əvəz edilsin.

2. “Yaşlı və gənc nəsil yazıçı, rəssam və bəstəkarların yaradıcılıq fəaliyyətini təmin etmək üçün xüsusi təqaüd fondu haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust tarixli 612 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 760) 2-ci hissəsindən və həmin Fərmanla təsdiq edilmiş “Yaşlı və gənc nəsil yazıçı, rəssam və bəstəkarların yaradıcılıq fəaliyyətini təmin etmək üçün xüsusi təqaüd fondundan istifadə Qaydaları”nın 1.5-ci, 1.6-cı, 3.2-ci bəndlərindən “və Turizm” sözləri çıxarılsın.

3. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2007-ci il 5 iyun tarixli 374-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 615 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 763) 2.3-cü bəndində “Mədəniyyət və Turizm Nazirliyi” sözləri “Dövlət Turizm Agentliyi” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 773 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 491; 2016, № 11, maddə 1801; 2020, № 1, maddə 8) ilə təsdiq edilmiş “Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.3-cü, 3.1-ci, 6.2-ci, 6.5-ci bəndlərdə, 6.6.1-ci, 6.6.4-cü, 6.8.1-ci, 6.8.2-ci, 6.8.9-cu, 6.8.12-ci yarımbəndlərdə, 6.10-cu bənddə, 6.12-ci bəndin birinci və ikinci cümlələrində, 7.4-cü bəndin birinci cümləsində, 7.8.1-ci yarımbəndin ikinci və üçüncü cümlələrində, 7.8.4-cü yarımbənddə, 8.2-ci bənddə ismin müvafiq hallarında “Mədəniyyət və Turizm Nazirliyi” sözləri ismin müvafiq hallarında “Dövlət Turizm Agentliyi” sözləri ilə əvəz edilsin;

4.2. 6.4-cü bəndin birinci cümləsində “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri” sözləri “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri” sözləri ilə əvəz edilsin.

5. “Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 401; 2012, № 11, maddə 1086; 2013, № 5, maddə 499; 2015, № 9, maddə 998; 2018, № 11, maddə 2243; 2019, № 3, maddə 417, № 5, maddələr 820, 826) 1.2-ci, 1.5-ci və 1.6-cı bəndlərindən “və Turizm” sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 284 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 499; 2014, № 11, maddə 1423; 2015, № 9, maddə 1007; 2016, № 2 (II kitab), maddə 235; 2019, № 5, maddə 826) ilə təsdiq edilmiş “Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları”nın 1.4-cü bəndinin beşinci abzasından “və Turizm” sözləri çıxarılsın.

7. “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 86; 2016, № 2 (II kitab), maddə 245) 1.10-cu bəndindən “və Turizm” sözləri çıxarılsın və həmin bəndə “və yerli” sözlərindən əvvəl “, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə” 2000-ci il 23 dekabr tarixli 432 nömrəli, “Kinematoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında” 2001-ci il 4 iyul tarixli 526 nömrəli, “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” 2002-ci il 24 avqust tarixli 769 nömrəli və “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında” 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844; 2001, № 7, maddə 470, № 10, maddə 640; 2002, № 12, maddə 725; 2003, № 9, maddə 475, № 10, maddələr 569, 585; 2004, № 9, maddə 678; 2005, № 5, maddə 400; 2006, № 7, maddə 590; 2007, № 5, maddə 452, № 6, maddə 599, № 11, maddə 1097; 2008, № 7, maddə 613; 2009, № 3, maddə 163, № 12, maddə 990; 2010, № 6, maddə 498, № 7, maddə 610; 2013, № 10, maddə 1146; 2014, № 5, maddə 477; 2015, № 9, maddə 999; 2016, № 8, maddə 1384; 2019, № 3, maddə 413, № 5, maddə 826, № 6, maddə 1036) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş “Yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi Qaydaları”nın 4.2-ci bəndinin onuncu abzasının ikinci cümləsindən “və Turizm” sözləri çıxarılsın;

1.2. həmin Fərmanla təsdiq edilmiş “İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında Əsasnamə”nin 4-cü hissəsinin birinci cümləsindən “və Turizm” sözləri çıxarılsın.

2. “Kinematoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 526 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 463; 2005, № 10, maddə 918; 2006, № 9, maddə 743) 1-ci hissəsinin ikinci abzasından “və Turizm” sözləri çıxarılsın.

3. “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489; 2004, № 8, maddə 616; 2005, № 1, maddələr 15, 19; 2006, № 9, maddə 743; 2008, № 7, maddələr 612, 619, № 8, maddə 719; 2009, № 4, maddə 226; 2014, № 10, maddə 1213; 2015, № 9, maddə 977; 2016, № 1, maddə 44; 2017, № 3, maddələr 358, 381; 2018, № 6, maddə 1220, № 10, maddə 1989) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş “Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları”nın 4-cü hissəsinin birinci və ikinci cümlələrindən “və Turizm” sözləri çıxarılsın;

3.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları”nın 13-cü hissəsindən “və Turizm” sözləri çıxarılsın;

3.3. həmin Fərmanla təsdiq edilmiş “Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları”nın 3.8-ci, 5.12-ci və 6.4-cü bəndlərindən “və Turizm” sözləri çıxarılsın;

3.4. həmin Fərmanla təsdiq edilmiş “Mülki silahın kolleksiya edilməsi və ya onun sərgisinin keçirilməsi Qaydaları”nın 2.3-cü və 3.10-cu bəndlərindən “və Turizm” sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486; 2007, № 5, maddə 459; 2008, № 6, maddə 498, № 8, maddə 721; 2015, № 7, maddə 837; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 353; 2019, № 2, maddə 209, № 3, maddə 410, № 11, maddə 1701) ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a 8 nömrəli əlavə - “Geniş protokol nümunəsi”nin adından “və Turizm” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## “Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 20 noyabr tarixli 26 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 156-VIQD nömrəli və “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

“Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 20 noyabr tarixli 26 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1330; 2017, № 11, maddə 1995) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“3.3. qeyri-hökumət təşkilatları tərəfindən qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmaq üçün təqdim edilməsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydə alınması və qrantların, xidmət müqavilələrinin və ianələrin reyestrinə daxil edilməsi;”.

2. Aşağıdakı məzmunda 3.3-1-ci və 3.3-2-ci bəndlər əlavə edilsin:

“3.3-1. qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların qeyri-hökumət təşkilatları tərəfindən təqdim edilməsi və bu məlumatların Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qrantların, xidmət müqavilələrinin və ianələrin reyestrinə daxil edilməsi;

3.3-2. qeyri-hökumət təşkilatlarının təsis sənədlərində edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərinin dövlət qeydiyyatı;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2013-cü il 24 iyun tarixli 2966 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında" 2014-cü il 14 fevral tarixli 273 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" 2014-cü il 29 dekabr tarixli 966 nömrəli, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2015-ci il 19 yanvar tarixli 995 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Bolqarıstan Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Protokolun təsdiq edilməsi haqqında" 2015-ci il 22 may tarixli 1243 nömrəli və "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 704; 2014, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 334, № 9, maddə 1470; 2017, № 3, maddə 353, № 8, maddə 1521; 2019, № 2, maddə 256) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın 4.4.30-cu və 4.4.32-ci yarımbəndlərinin "İcraçı orqanlar" sütunundan "və Turizm" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 161; 2020 № 8, maddə 1064) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın 6-cı hissəsinin beşinci abzasından "və Turizm" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 29 dekabr tarixli 966 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1640) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 39; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 5, maddə 802, № 8, maddə 1521; 2019, № 3, maddə 443, № 5, maddə 899, № 11, maddə 1719; 2020, № 8, maddə 1064) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 1.3-cü bəndinin "İcraçılar" sütunundan "və Turizm" sözləri çıxarılsın.

5. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Bolqarıstan Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Protokolun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 1243 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 601) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 9, maddə 1043; 2016, № 2 (II kitab), maddə 344; 2020, № 5, maddə 602) aşağıdakı dəyişikliklər edilsin;

6.1. 1-ci hissədə və 3.2-ci bənddə ismin müvafiq hallarında "Mədəniyyət və Turizm Nazirliyi" sözləri ismin müvafiq hallarında "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin;

6.2. 2-ci hissədən "və Turizm" sözləri çıxarılsın;

6.3. 3.3-cü bənddə "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 18 may tarixli 277 nömrəli, "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 22 may tarixli 292 nömrəli, "2009-cu il fevralın 26-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2009-cu il 24 iyun tarixli 338 nömrəli, "2009-cu il mayın 5-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2009-cu il 24 iyun tarixli 342 nömrəli və "2009-cu il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2009-cu il 24 iyun tarixli 344 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 may tarixli 277 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 358; 2011, № 2, maddə 85) 2-ci hissəsindən və həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı"nın 1.3-cü bəndindən, 2.11-ci və 2.13-cü bəndlərinin "İcraçılar" sütunundan "və Turizm" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 292 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 373; 2014, № 5, maddə 477, № 9, maddə 1027) ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı"nın 1.3-cü bəndinin "İcraçı təşkilatlar" sütunundan "və Turizm" sözləri çıxarılsın.

3. "2009-cu il fevralın 26-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 338 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 463) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyinə" sözləri "Dövlət Turizm Agentliyinə" sözləri ilə əvəz edilsin.

4. "2009-cu il mayın 5-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 342 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 467) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

5. "2009-cu il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 344 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 469) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "2013-cü il martın 11-də Zaqreb şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Xorvatiya Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə" 2013-cü il 3 may tarixli 885 nömrəli, "2013-cü il martın 12-də Mədinə şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə" 2013-cü il 11 iyun tarixli 909 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs və Fəaliyyət, Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2014-cü il 9 sentyabr tarixli 258 nömrəli, "Azərbaycan Respublikası hökuməti ilə Argentina Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" 2015-ci il 30 oktyabr tarixli 665 nömrəli, "Azərbaycan Respublikası ilə Uruqvay Şərq Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" 2015-ci il 30 oktyabr tarixli 666 nömrəli və "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Ukraynanın Mədəniyyət Nazirliyi arasında 2016-2020-ci illər üzrə mədəniyyət və incəsənət sahəsində əməkdaşlığa dair Proqramın təsdiq edilməsi haqqında" 2016-cı il 4 oktyabr tarixli 1057 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "2013-cü il martın 11-də Zaqreb şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Xorvatiya Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 3 may tarixli 885 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 506) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

2. "2013-cü il martın 12-də Mədinə şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 iyun tarixli 909 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 637) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs və Fəaliyyət, Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 9 sentyabr tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1038) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

4. "Azərbaycan Respublikası hökuməti ilə Argentina Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 30 oktyabr tarixli 665 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1137) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

5. "Azərbaycan Respublikası ilə Uruqvay Şərq Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 30 oktyabr tarixli 666 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1138) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

6. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Ukraynanın Mədəniyyət Nazirliyi arasında 2016-2020-ci illər üzrə mədəniyyət və incəsənət sahəsində əməkdaşlığa dair Proqramın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 oktyabr tarixli 1057 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1616) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2017-ci il 15 may tarixli 1388 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Kolumbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında" 2017-ci il 7 avqust tarixli 1577 nömrəli, "Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında" 2017-ci il 29 noyabr tarixli 1694 nömrəli və "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" 2017-ci il 29 noyabr tarixli 1698 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 may tarixli 1388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 792) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Kolumbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1577 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1524) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1694 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2033) 2-ci hissəsindən "və Turizm" sözləri çıxarılsın.

4. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1698 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2037) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 617-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 16 iyun tarixli 1459 nömrəli, "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatı haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2017-ci il 28 oktyabr tarixli 1642 nömrəli, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1914 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 617-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 1459 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1075) 3-cü hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645; 2019, № 6, maddə 1031) ilə təsdiq edilmiş "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.4-cü yarımbəndindən "və Turizm" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 oktyabr tarixli 1642 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1809; 2019, № 5, maddə 830) ilə təsdiq edilmiş "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatı haqqında Əsasnamə"nin 6-cı və 7-ci hissələrindən "və Turizm" sözləri çıxarılsın.

4. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2341; 2018, № 7 (I kitab), maddə 1447) 2.2-ci bəndindən "və Turizm" sözləri çıxarılsın.

5. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli 1914 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 665) 3.4-cü bəndindən "və Turizm" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında” 2004-cü il 1 iyul tarixli 298 nömrəli, “Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” 2005-ci il 25 avqust tarixli 972 nömrəli, “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə” 2006-cı il 17 aprel tarixli 1413 nömrəli, “Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” 2006-cı il 26 avqust tarixli 1640 nömrəli, “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında” 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli və “Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında” 2007-ci il 28 fevral tarixli 2006 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 540; 2006, № 9, maddə 743; 2007, № 2, maddə 87, № 10, maddə 1011; 2008, № 3, maddə 168; 2009, № 6, maddə 424; 2011, № 2, maddələr 85, 134; 2017, № 3, maddə 353; 2019, № 5, maddə 911) ilə təsdiq edilmiş “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın 1.8-ci bəndinin “İcraçılar” sütunundan “və Turizm” sözləri çıxarılsın, 2.19-cu və 3.7-ci bəndlərinin “İcraçılar” sütununda “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 25 avqust tarixli 972 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 765; 2006, № 9, maddə 743; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı”nın 1.5-ci bəndinin “Tədbirin adı” sütununda “Mədəniyyət və Turizm Nazirliyinin” sözləri “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 1413 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 342; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1464; 2018, № 2, maddə 273) ilə təsdiq edilmiş “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”nın 3.3.1-ci yarımbəndinin “İcraçılar” sütunundan “və Turizm” sözləri çıxarılsın.

4. “Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 avqust tarixli 1640 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 725; 2009, № 7, maddə 589; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 129; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384; 2018, № 1, maddə 79, № 3, maddə 478) 1-ci hissəsindən “və turizm” sözləri çıxarılsın və həmin hissəyə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini” sözlərindən sonra “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini” sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1138; 2008, № 1, maddə 9, № 3, maddə 168; 2009, № 12, maddə 1043; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2019, № 2, maddə 257) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci, 2-ci, 31-ci, 39-cu, 41-ci və 47-ci hissələrin “İcra orqanları” sütununda “Prezidentin” sözü “Azərbaycan Respublikası Prezidentinin” sözləri ilə əvəz edilsin;

5.2. 11-ci hissənin “İcra orqanları” sütununda “Prezidentin” sözü “Azərbaycan Respublikası Prezidentinin” sözləri ilə əvəz edilsin və həmin hissədən “və Turizm” sözləri çıxarılsın;

5.3. 28-ci və 37-ci hissələrin “İcra orqanları” sütununa “Milli” sözündən əvvəl “Azərbaycan” sözü əlavə edilsin;

5.4. 34-cü hissənin “İcra orqanları” sütunundan “və Turizm” sözləri çıxarılsın.

6. “Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 fevral tarixli 2006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 179; 2009, № 3, maddə 163; 2010, № 7, maddə 610; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521) 1-ci hissəsindən “və turizm” və “Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri” sözləri çıxarılsın və həmin hissədə “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri” sözləri “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Muradlı Güloğlan Babasən oğlu

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Babayev Hümbət Hümbət oğlu
Əhmədov Rəfael Mehtixan oğlu
Əliyev Eyvaz Qənbər oğlu
Əliyev Ramin Akif oğlu
Əsədov Ramil Elxan oğlu
Fərzəliyev Qalib Mahmud oğlu
Həsənli Vəli İbrahim oğlu
Hüseynov Əli Zabit oğlu
İbrahimov Ceyhun Əbülfəz oğlu
Quluzadə Cəfər Mahmud oğlu
Məmmədov Abuzər Bağır oğlu
Mustafayev Mübariz İsa oğlu
Novruzova Aygün Elçin qızı
Pənahov Hacımurad Firuz oğlu
Rəhimova Züleyxa Həsən qızı
Sarıyev Əlinur Çingiz oğlu
Səfərov Maqsud Hüseyn oğlu
Zeynalov Bəxtiyar Əbülfəz oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşlarına gömrük xidməti general-mayoru ali xüsusi rütbəsi verilsin:

Xəlilov Təmkin Həsən oğlu - Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəisi

Mehdiyev Telman Hüseynqulu oğlu - Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi

Novruzov Qulu Novruz oğlu - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2021-ci il*

# “Dövlət Nəzarəti İnformasiya Sistemi”nin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsini təmin edən “Dövlət Nəzarəti İnformasiya Sistemi” yaradılsın.

2. “Dövlət Nəzarəti İnformasiya Sisteminin iş Qaydası” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

3.1. Dövlət Nəzarəti İnformasiya Sisteminin fəaliyyətini təmin etsin;

3.2. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün əsas səmərəlilik göstəricilərini müəyyən etsin və qiymətləndirməni aparsın;

3.3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Dövlət Nəzarəti İnformasiya Sisteminin informasiya təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 yanvar 2021-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879, № 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189, № 3, maddə 449, № 4, maddələr 662, 682, № 8, maddə 1688, № 9, maddə 1840, № 10, maddə 1985, № 11, maddə 2264, № 12 (I kitab), maddələr 2565, 2585; 2019, № 6, maddə 1009; 2020, № 6, maddə 705; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 noyabr tarixli 1187 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 11.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“11.6. Azərbaycan Respublikasının Mərkəzi Bankı - “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mərkəzləşdirilmiş kredit reyestrində qeydiyyata alınan şəxslər, “Daşınar əmlakın yüklülüyü haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması ilə bağlı yüklülük sahibi, borclu və yüklülük verən, “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş icbari sığorta növlərinə dair bağlanılmış icbari sığorta müqavilələri üzrə sığortalılar, “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması ilə bağlı mülkiyyətçilər, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən göstərilən elektron imzalar üzrə sertifikat xidmətlərindən istifadə edən şəxslər, məsafədən maliyyə xidmətlərinin əldə edilməsi üçün müraciət edən şəxslər, vergi, rüsum, gömrük yığımları, icarə haqqı və digər kütləvi xidmətlər üzrə ödənişlərin toplanılması və fiziki şəxslər, hüquqi şəxslər və dövlət qurumları arasında hesablaşmaların aparılması məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış informasiya sistemlərində ödəniş aparan və ya qeydiyyata alınan şəxslər Azərbaycan Respublikasının vətəndaşları olduqda - şəxsiyyət vəsiqələri üzrə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduqda - Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq hüququnu təsdiq edən sənədlər, o cümlədən qaçqın vəsiqəsi üzrə məlumatlar;”.

2. 11.7-ci bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” 1998-ci il 18 iyun tarixli 832 nömrəli, “Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların yayılması barədə” 2000-ci il 18 mart tarixli 364 nömrəli, “Birgə kino istehsalı haqqında” Avropa Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqanın təyin edilməsi barədə” 2000-ci il 15 iyul tarixli 475 nömrəli, “Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında” 2001-ci il 27 dekabr tarixli 851 nömrəli, “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq Xüsusi Hüququ Unifikasiya İnstitutunun (YUNİDRUA) “Oğurlanmış, yaxud qanunsuz aparılmış mədəniyyət sərvətləri haqqında” Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilməsi barədə” 2002-ci il 14 noyabr tarixli 1089 nömrəli, “Çıraqqala” tarixi abidələr kompleksinin bərpası və qorunması haqqında” 2003-cü il 23 iyun tarixli 1262 nömrəli, “Şabran şəhəri” tarix və mədəniyyət abidəsinin qorunması haqqında” 2003-cü il 27 sentyabr tarixli 1343 nömrəli və “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında” 2004-cü il 11 noyabr tarixli 517 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 409; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2020, № 8, maddə 1064) ilə təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci, 3-cü, 10-cu, 16-cı, 20-ci və 21-ci hissələrin “İcra orqanları” sütununda “İcra Aparatı” sözləri “Administrasiyası” sözləri ilə əvəz edilsin;

1.2. 7-ci hissənin “İcra orqanları” sütununa “Elmlər” sözündən əvvəl “Azərbaycan Milli” sözləri əlavə edilsin;

1.3. 12-ci və 13-cü hissələrin “İcra orqanları” sütunundan “və Turizm” sözləri çıxarılsın;

1.4. 15-ci və 25-ci hissələr ləğv edilsin;

1.5. 24-cü və 36-cı hissələrin “İcra orqanları” sütununda “İcra Aparatı, Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti” sözləri “Administrasiyası, Mətbuat Şurası, Milli Televiziya və Radio Şurası, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti” sözləri ilə əvəz edilsin;

1.6. 26-cı hissənin “İcra orqanları” sütununda “İcra Aparatı,” sözləri “Administrasiyası, Azərbaycan Milli” sözləri ilə, “Dövlət Televiziya və Radio Verilişləri Şirkəti” sözləri “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti” sözləri ilə əvəz edilsin və həmin sütundan “və Turizm” sözləri çıxarılsın.

2. “Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların yayılması barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 mart tarixli 364 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 203; 2006, № 9, maddə 743) 5-ci hissəsindən “və Turizm” sözləri çıxarılsın.

3. “Birgə kino istehsalı haqqında” Avropa Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqanın təyin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 475 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 537; 2002, № 1, maddə 57; 2006, № 9, maddə 743) 1-ci hissəsindən “və Turizm” sözləri çıxarılsın.

4. “Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 27 dekabr tarixli 851 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 795; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 24; 2006, № 9, maddə 743) 1-ci hissəsinin onuncu abzasından “və Turizm” sözləri çıxarılsın.

5. “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq Xüsusi Hüququ Unifikasiya İnstitutunun (YUNİDRUA) “Oğurlanmış, yaxud qanunsuz aparılmış mədəniyyət sərvətləri haqqında” Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 14 noyabr tarixli 1089 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 668; 2006, № 9, maddə 743) adından və 1-ci hissəsindən “və Turizm” sözləri çıxarılsın.

6. “Çıraqqala” tarixi abidələr kompleksinin bərpası və qorunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 iyun tarixli 1262 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 324; 2006, № 9, maddə 743) 3-cü hissəsindən “və Turizm” sözləri çıxarılsın.

7. “Şabran şəhəri” tarix və mədəniyyət abidəsinin qorunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 1343 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 517; 2006, № 9, maddə 743) aşağıdakı dəyişikliklər edilsin;

7.1. 4-cü hissədə “və Turizm Nazirliyinə” sözləri “Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə” sözləri ilə, “etsin” sözü “etsinlər” sözü ilə, “görsün” sözü “görsünlər” sözü ilə əvəz edilsin;

7.2. 5-ci hissədən “və Turizm” sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli 517 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 940; 2005, № 7, maddə 596; 2006, № 9, maddə 743; 2007, № 2, maddə 87; 2008, № 3, maddə 168; 2009, № 4, maddə 226; 2010, № 2, maddə 80; 2011, № 2, maddə 85; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1464; 2020, № 8, maddə 1064) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı” çərçivəsində həyata keçiriləcək Tədbirlər”də aşağıdakı dəyişikliklər edilsin;

8.1. 5.2.3-cü yarımbəndə, 8.11-ci, 8.18-ci, 8.20-ci, 8.21-ci və 8.25-ci bəndlərə “Milli” sözündən əvvəl “Azərbaycan” sözü əlavə edilsin;

8.2. 5.2.5-ci yarımbəndin “İcraçılar” sütununda “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi” sözləri “İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi” sözləri ilə əvəz edilsin;

8.3. 5.2.7-ci yarımbəndin “İcraçılar” sütunundan “və Turizm” sözləri çıxarılsın və həmin sütuna “Səhiyyə Nazirliyi” sözlərindən sonra “, Dövlət Turizm Agentliyi” sözləri əlavə edilsin.

8.4. 5.2.8-ci yarımbəndin “İcraçılar” sütununda “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi” sözləri “Qida Təhlükəsizliyi Agentliyi” sözləri ilə əvəz edilsin;

8.5. 5.1.14-cü, 5.2.17-ci və 5.2.19-cu yarımbəndlərin “İcraçılar” sütununda “Tikinti” sözü “Şəhərsalma” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2021-ci il*

# Vətən müharibəsi iştirakçılarına “Müharibə veteranı” adının verilməsi işinin təşkili üzrə Komissiyanın yaradılması barədə

## Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Vətən müharibəsi iştirakçılarına “Müharibə veteranı” adının verilməsi işinin təşkili üzrə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinin müavini.

2. Komissiyaya tapşırılsın ki, Vətən müharibəsi iştirakçılarına “Müharibə veteranı” adının verilməsi üçün müharibə iştirakçılarının siyahısını müəyyən etsin və müvafiq təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Müəyyən edilsin ki:

3.1. Vətən müharibəsi iştirakçılarına qanunvericiliyə uyğun olaraq “Müharibə veteranı” adı Komissiyanın müəyyən etdiyi siyahı nəzərə alınmaqla verilir;

3.2. Komissiya öz fəaliyyətinə müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada cəlb edə və işçi qruplar yarada bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Bakı şəhəri, 30 yanvar 2021-ci il*

# İdarələrarası Mərkəzdə "Enerji təminatı məsələləri" üzrə İşçi Qrupunun iclası keçirilib

İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Qərargahın tərkibində İdarələrarası Mərkəz və müvafiq sahələr üzrə İşçi qruplar fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə işğaldan azad olunmuş ərazilərdə "Yaşıl enerji" konsepsiyasının tətbiqi, enerji infrastrukturunun bərpası və yenidən qurulması ilə bağlı konkret vəzifələr müəyyən edib, zəruri tapşırıqlar verib. Dövlət başçısının tapşırığı rəhbər tutularaq, İdarələrarası Mərkəzdə "Enerji təminatı məsələləri" üzrə İşçi Qrupu yaradılıb.

AZƏRTAC xəbər verir ki, bu istiqamətdə İdarələrarası Əlaqələndirmə Mərkəzinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, energetika naziri Pərviz Şahbazov, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov, "Azəriqaz" İctimai Birliyinin Baş direktoru Ruslan Əliyev, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə İşçi Qrupunun iclası keçirilib.

Tədbirdə bu sahədə fəaliyyət göstərən qurumların işğaldan azad olunmuş ərazilərdə birgə koordinasiya olunmuş fəaliyyətinin təmin edilməsi, yaşıl enerji zonasının yaradılması məqsədilə bərpa olunan enerji mənbələrindən istifadə, ekoloji normaların gözlənilməsi və sair məsələlər müzakirə edilib, görüləcək işlər və atılacaq addımlar ətrafında fikir mübadiləsi aparılıb.

# Gənclər Günü ilə əlaqədar Milli Məclisin Gənclər və idman komitəsində görüş keçirilib

Yanvarın 30-da Milli Məclisin Gənclər və idman komitəsində bir qrup gənc idmançı və məşqçilərlə görüş keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, artıq ənənə halını almış və Gənclər Günü münasibətilə keçirilmiş görüşdə idmançıların həyat və fəaliyyətləri, pandemiya şəraitində keçirilən məşqlər, qarşılaşdıqları çətinliklər və onların aradan qaldırılması, bir sıra digər məsələlər müzakirə olunub.

Görüşdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Azərbaycanda idmana və idmançılara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir. Son illər Azərbaycan bir sıra beynəlxalq səviyyəli idman yarışlarına evsahibliyi edib. Bu gün idmançılarımız beynəlxalq yarışlarda yüksək nəticələr göstərərək uğurlar əldə edirlər.

Söhbət zamanı parlamentin sədr müavini ölkəmizin Qarabağ uğrunda 44 günlük Vətən müharibəsində qazandığı Zəfərin dünyanın idman meydançalarında da uğurla davam etdiriləcəyinə, işğaldan azad edilmiş Şuşamızda, Laçınımızda və digər ərazilərimizdə dalğalanan üçrəngli şanlı bayrağımızın idman sahəsindəki qələbələr münasibətilə də ucaldılacağına əminliyini bildirib.

Görüşdə iştirak edən idmançılarımız qarşıda duran yarışlar, pandemiya dövrünün yaratdığı çətinliklərdən danışıblar. Dövlət tərəfindən onlar üçün yaradılmış şəraiti, göstərilən diqqət və qayğını yüksək qiymətləndiriblər.

Tədbirin sonunda Milli Məclisin Gənclər və idman komitəsi tərəfindən 2 fevral - Gənclər Günü münasibətilə ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edən gənc idmançılar, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi və Azərbaycanda idmanın inkişafında göstərdiyi xidmətlərə görə məşqçi müəllimlər fəxri fərmanla təltif ediliblər.

# Təhsil naziri Emin Əmrullayev Vətən müharibəsində iştirak etmiş təhsil işçiləri ilə görüşüb

Yanvarın 30-da təhsil naziri Emin Əmrullayev Vətən müharibəsində iştirak etmiş təhsil işçiləri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, nazir Emin Əmrullayev 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin hər birimizə qürur hissi yaşatdığını qeyd edib. O vurğulayıb ki, müharibədə xalq olaraq həmrəy olduq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu altında birləşərək torpaqlarımızı işğaldan azad etdik. Torpaqlarımızın işğaldan azad olunmasını şərtləndirən əsas amillərdən biri və ən başlıcası qələbə sözünü tariximizə qızıl hərflərlə yazan Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət və ordu quruculuğu siyasəti oldu.

Nazir diqqətə çatdırıb ki, torpaqlarımızı işğaldan azad edən qəhrəmanların igidlikləri tariximizə əbədi daxil oldu. Vətən müharibəsi təhsilimizə də təsirsiz ötüşmədi. Azərbaycan müəllimi bu müharibədə torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərə qatıldı. Onların övladlarımıza verdikləri vətən sevgisi ilə biz bu müharibədən üzüağ çıxdıq. 44 günlük Vətən müharibəsində 20 təhsil işçisi döyüşlərdə qəhrəmanlıq və şücaət göstərərək şəhidlik zirvəsinə ucaldı. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə onların hər biri müxtəlif dərəcəli medallarla təltif ediliblər. Şəhid təhsil işçilərindən 19 nəfəri "Vətən uğrunda", 7-si "Şuşanın azad olunmasına görə", 3-ü "Füzulinin azad olunmasına görə", 2-si "Xocavəndin azad olunmasına görə", 4-ü "Cəsur döyüşçü", 4-ü "Döyüşdə fərqlənməyə görə", 5-i "Qubadlının azad olunmasına görə", 5-i "Cəbrayılın azad olunmasına görə", 2-si "Laçının azad olunmasına görə", 1 nəfəri "İgidliyə görə", 1 nəfəri "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

"Müharibənin təhsilimizə mənfi təsirləri də oldu. Bu müharibə 10 şagirdin həyatına son qoydu, məktəb infrastrukturuna ciddi ziyan dəydi - 60 təhsil müəssisəsi dağıntılara məruz qaldı. Lakin qürurverici haldır ki, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün səfərbərliyə qoşulanlar sırasında 20 məktəb direktoru, 32 direktor müavini, 671 müəllim düşmənə qarşı vuruşaraq qəhrəmanlıqlar göstərib. Vətən müharibəsi bizə çox şey öyrətdi. Qələbəmizin hər anını addım-addım şagirdlərimizə və tələbələrimizə öyrətməliyik ki, bir daha heç bir mənfur qüvvə Azərbaycana qarşı qalxmağa cürət etməsin", - deyə təhsil naziri qeyd edib.

Emin Əmrullayev bildirib ki, güclü dövlət qurmağın yolu həm də təhsildən keçir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun qələbəsini tədrisə inteqrasiya etmək məqsədilə "Azərbaycan xalqının tarixi qələbəsinin tədrisdə əks etdirilməsi haqqında" Təhsil Nazirliyinin Fəaliyyət Planı təsdiq edilib. Artıq "Qələbə dərsləri" adı altında müxtəlif fənn və siniflər əhatə edən mövzular hazırlanaraq Təhsil İnstitutunun rəsmi səhifəsində yerləşdirilib. Müəllimlər bu mövzuları virtual dərslərdə keçirlər. Həmçinin teledərslərdə də qələbəyə həsr olunan süjetlər hazırlanıb.

Görüşdə Vətən müharibəsində iştirak etmiş təhsil işçiləri təəssüratlarını bölüşüb, zəfərə aparan 44 günlük müharibədən danışıblar.

# XİN: "Aİ sözçüsünün erməni hərbçilərin azadlığa buraxılması ilə bağlı açıqlama verməsi təəccüb doğurur"

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi Avropa İttifaqının (Aİ) sözçüsünün erməni hərbçilərinin azadlığa buraxılması ilə əlaqədar açıqlamasına münasibət bildirib.

XİN-dən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı verilən açıqlamada deyilir: "Avropa İttifaqının sözçüsü tərəfindən 5 erməni hərbçinin azadlığa buraxılması ilə əlaqədar açıqlamanın verilməsi təəccüb doğurur. Məlum olduğu kimi, azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyev Ermənistan tərəfindən 7 ilə yaxın müddətdə əsarətdə saxlanılıb və Aİ bu vəziyyətə biganə münasibət göstərib.

Vurğulamaq istərdik ki, son hərbi əməliyyatlar zamanı Ermənistan tərəfindən "Smerç" raketlərindən istifadə edilərək azərbaycanlı dinc insanların hədəfə alınması, 100-dən çox mülki şəxsin qətlə yetirilməsi, eləcə də ümumilikdə müharibə dövründə 4 mindən çox insanın itkin düşməsi ilə əlaqədar Aİ bugünədək hər hansı açıqlama verməyib, münasibət bildirməyib.

Avropa İttifaqı tərəfinə xatırlatmaq istərdik ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə məqsədli şəkildə yeridilən 62 nəfər hərbi əsir deyil. Onlar müharibədən az qala 20 gün keçdikdən, hərbi əməliyyatların dayandırılması ilə bağlı üçtərəfli bəyanat imzalandıqdan sonra Azərbaycan ərazilərinə göndərilən Ermənistan hərbi qulluqçularıdır. Onlar Azərbaycan Ordusunun olduğu ərazilərə müdaxilə ediblər. Bu terrorçu-diversant qrupu tərəfindən törədilmiş terror aktları nəticəsində azərbaycanlı hərbçilər Turan Əliyev, Rahil Əkbərov, Hacırza Rzayev, Raqib Əzizov həlak olub, mülki şəxs Seymur Rzayev ağır yaralanıb.

Beynəlxalq humanitar hüquqa, nə də heç bir konvensiyaya əsasən, bu şəxslər hərbi əsir hesab edilirlər. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən, terror aktları törədən bu insanlar cinayət məsuliyyətinə cəlb olunublar və onların istintaqı davam etdirilir. Aİ rəsmisinin Azərbaycanla bu tərzdə danışması qəbuledilməzdir. Azərbaycan yalnız bərabərhüquqlu münasibətləri qəbul edir. Kim Azərbaycanla bu şəkildə danışmağa cəhd edərsə, adekvat cavabla üzləşəcək.

Qeyd etmək istərdik ki, birtərəfli və ikili standartlara əsaslanan bu yanaşma Aİ-nin Azərbaycanla əlaqələrinə xələl gətirə bilər".

# Ağdamda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi açılıb






*Əvvəli 1-ci səh.*

Türkiyə milli müdafiə nazirinin müavini Yunus Emre Karaosmanoğlu çıxış edərək regionda sülh və sabitliyin Türkiyə, Rusiya və Azərbaycan prezidentlərinin səyləri və qətiyyətli iradələri ilə təmin olunduğunu diqqətə çatdırıb. Bildirib ki, son illərdə davam edən qlobal və regional proseslər Rusiya ilə əməkdaşlığımızla yanaşı, regional məsələlərin həllində dialoqun nə qədər mühüm əhəmiyyət kəsb etdiyini bir daha ortaya qoyub.

Türkiyənin həm ikitərəfli, həm də regional məsələlərdə Azərbaycan və Rusiya ilə nümayiş etdirdiyi həmrəyliyin Qafqazda sülh, sabitlik və inkişafın təmini üçün əhəmiyyətini vurğulayan Yunus Emre Karaosmanoğlu deyib: "Bu baxımdan Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin önəmi böyükdür. Birgə Monitorinq Mərkəzi vasitəsilə atəşkəsə nəzarəti lazımi şəkildə təmin edərək sabitliyin qorunmasına birlikdə töhfə verəcəyimizə inanırıq. Gələcəkdə bu əməkdaşlığın davam etməsinin faydalı olacağını düşünürəm".

O qeyd edib ki, Türkiyə və Rusiya əsgərləri birlikdə fəaliyyət göstərərək regionda sülh və sabitliyin təmin edilməsi missiyasını yerinə yetirəcəklər. Mərkəz atəşkəs rejiminə əməl olunmasına nəzarət etmək, bu barədə məlumatlar və faktları toplamaq, problemləri araşdırmaq, atəşkəsin qorunması ilə bağlı birgə tədbirlər görmək istiqamətində fəaliyyət göstərəcək.

Sonra ikitərəfli görüşlər keçirilib, Mərkəzin ərazisində ağac əkilib.

Qeyd edək ki, Monitorinq Mərkəzinin ümumi sahəsi 4 hektara yaxındır. Ərazidə 65 ədəd modul tipli xidməti, inzibati və yaşayış otaqları var. Bütün otaqlar zəruri avadanlıqlar, su, elektrik və istiliklə təmin olunub. Burada hər iki tərəfin birgə istifadəsi üçün ümumi monitorinq mərkəzi, brifinq zalı, 100 nəfərlik yeməkxana, tibb məntəqəsi, camaşırxana, bərbər, dərzi, mağaza da var.

Ərazidə su stansiyası, transformator, generator, avtomobil dayanacağı, açıq havada iki idman şəhərciyi, eləcə də iki örtülü idman zalı, ərzaq və soyuducu anbarlar yerləşir.

Bütün əraziyə perimetr boyu hasar çəkilib, 4 ədəd müşahidə nəzarət qülləsi quraşdırılıb, sutkalıq mühafizə təşkil olunub.

Şəxsi heyətin istirahətinin təşkili üçün zəruri avadanlıqla tam təmin edilmiş otaqlar da hazırlanıb.

Mərkəzin mühafizəsi Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən həyata keçirilir.

Monitorinq mərkəzinin türkiyəli şəxsi heyətinə general-mayor Abdullah Katırcı, rusiyalı şəxsi heyətinə isə general-mayor Viktor Fedorenko rəhbərlik edir.

# Azərbaycan ilə Türkiyə arasında Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti müzakirə olunub

Yanvarın 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Respublikası milli müdafiə nazirinin müavini Yunus Emre Karaosmanoğlu ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik Z.Həsənov Azərbaycan-Türkiyə qardaşlığının əbədi və sarsılmaz olduğunu qeyd edərək iki ölkə arasında hərbi əməkdaşlığın dostluq münasibətləri üzərində qurulduğunu, bu əməkdaşlığın inkişaf etdiyini və möhkəmləndiyini vurğulayıb. Ölkələrimiz arasında əlaqələrin inkişafında dövlət başçılarının dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu münasibətlərin Azərbaycan-Türkiyə hərbi və hərbi-texniki əməkdaşlığının möhkəmlənməsi və inkişafına müsbət təsir göstərdiyini xüsusi vurğulayıb.

General-polkovnik Z.Həsənov qeyd edib ki, tarixə Vətən müharibəsi kimi düşən İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatdı və torpaqlarımız 44 gün ərzində işğaldan azad edildi. Vətən müharibəsinin Azərbaycanın parlaq qələbəsi ilə sona çatmasında Türkiyənin mənəvi dəstəyinin böyük rol oynadığını xüsusi vurğulayan müdafiə naziri Türkiyənin dövlət rəhbərliyinə və xalqına minnətdarlığını ifadə edib.

Müdafiə naziri ümidvar olduğunu bildirib ki, Azərbaycanın Ağdam rayonu ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi səmərəli fəaliyyət göstərərək əldə olunan razılaşmaların icrasına nəzarət edəcək və regionda uzunmüddətli sülhün təmin edilməsinə töhfə verəcək.

Öz növbəsində, Türkiyə milli müdafiə nazirinin müavini Vətən müharibəsində qazanılan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Y.E.Karaosmanoğlu Birgə Monitorinq Mərkəzinin tam həcmdə fəaliyyət göstərməsi üçün görülən işlərə və mərkəzdə yaradılan şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib. Türkiyə milli müdafiə nazirinin müavini əmin olduğunu bildirib ki, mərkəz təyinatı üzrə fəaliyyət göstərərək qarşısında duran vəzifə və tapşırıqların öhdəsindən layiqincə gələcək, bölgədə sülhün və sabitliyin təmin edilməsinə nail olacaq.

Türkiyə milli müdafiə nazirinin müavini Azərbaycan ilə Türkiyə arasında münasibətlərin hazırkı vəziyyətindən məmnunluğunu ifadə edib və əməkdaşlığın bundan sonra da inkişaf edəcəyini qeyd edib.

Tərəflər hərbi əməkdaşlığın hər iki ölkənin maraqlarına xidmət etdiyini əsas gətirərək bu istiqamətdə, xüsusilə hərbi-texniki əməkdaşlıq və birgə təlimlərin keçirilməsi sahəsində səylərin daha da artırılmasının zəruriliyini qeyd ediblər. Bildirilib ki, Azərbaycan ilə Türkiyə arasında keçirilən hərbi təlimlər hər iki ölkə ordularının şəxsi heyətinin peşəkarlığının artırılması ilə yanaşı, bölgədə sülhün, təhlükəsizliyin və sabitliyin qorunub-saxlanılmasına xidmət edir.

Görüşdə regional və ikitərəfli əməkdaşlıqla bağlı digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Rusiya arasında Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti müzakirə edilib

Yanvarın 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiya Federasiyası müdafiə nazirinin müavini general-polkovnik Aleksandr Fomin ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanın müdafiə naziri vurğulayıb ki, dövlətlərimizin başçılarının dostluq münasibətləri ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin, xüsusilə də hərbi və hərbi-texniki əməkdaşlığın dinamik inkişafını müəyyənləşdirir.

General-polkovnik Z.Həsənov qeyd edib ki, tarixə Vətən müharibəsi kimi düşən İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatıb və torpaqlarımız 44 gün ərzində işğaldan azad edilib.

Müdafiə naziri ümidvar olduğunu bildirib ki, Azərbaycanın Ağdam rayonu ərazisində yerləşən Birgə Monitorinq Mərkəzi səmərəli fəaliyyət göstərərək əldə olunan razılaşmaların icrasına nəzarət edəcək və regionda uzunmüddətli sülhün təmin olunmasına töhfə verəcək.

General-polkovnik A.Fomin Birgə Monitorinq Mərkəzinin tam həcmdə fəaliyyətə başlaması üçün görülən işlərə və mərkəzdə yaradılan şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib. Rusiya Müdafiə nazirinin müavini əmin olduğunu qeyd edib ki, mərkəz təyinatı üzrə fəaliyyət göstərərək qarşısına qoyulan vəzifə və tapşırıqların öhdəsindən layiqincə gələcək, bölgədə sülhün və sabitliyin təmin edilməsinə nail olacaq.

Tərəflər həmçinin beynəlxalq və regional təhlükəsizlik məsələlərini, hərbi və hərbi-texniki əməkdaşlıq sahələrində əməkdaşlığın mövcud vəziyyəti və əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## İlin uğurlu yekunları







# Qələbənin nidası

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev çıxışı zamanı erməni vəhşiliklərinə toxunaraq onların bütün şəhəri dağıtdıqlarını, viran qoyduqlarını, beynəlxalq ictimaiyyətin bu məsələyə laqeyd yanaşmasını xüsusi qeyd etdi. Bütün işğal edilmiş ərazilərimizdə törətdiklərinə görə ermənilərin beynəlxalq məhkəmədə cavab verəcəklərini, bu məqsədlə xarici ekspertlərin Azərbaycana dəvət ediləcəyini, qiymətləndirmənin həyata keçiriləcəyini, təzminatın tələb olunacağını, zərərçəkmiş bütün insanların dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlarını bəyan etdi.

Prezident qeyd etdi ki, yeni böyük baş planın tərtib edilməsi üçün müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Bütün inzibati, ictimai binalar, məktəblər, tibb ocaqları, infrastruktur yaradılacaq. Küçələr, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq: "Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax bunları ediblər, dağıdıblar.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb".

### Prezident: "Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb"

Noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi azad ediləndən 3 gün sonra Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin bölgəyə səfər etdilər.

Ölkə rəhbəri iyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımızı qürurla dalğalandırdı. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izlədi.

Sonra dövlət başçısı və birinci xanım Ağdam məscidini ziyarət etdilər. Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılan qoşa minarəli Ağdam məscidinə bağışladı.

Prezident və birinci xanımın məscidə ayaqyalın daxil olaraq dua etmələri hər kəs tərəfindən böyük ehtiramla qarşılandı, dinimizə, tarixi məkanlara, ibadət ocaqlarımıza dərin bağlılıq, sonsuz sevgi kimi dəyərləndirildi.

Dövlət başçısı Ağdam məscidinin qarşısında çıxışı zamanı döyüşlə bağlı müəyyən məqamlara da aydınlıq gətirdi: "Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm. Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik.





Müharibənin bütün sirlərini açmaq hələ ki tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi".

Prezident Ağdam şəhərini dağılmış vəziyyətdə görməyin çox ağrılı olduğunu söylədi. Bir neçə il bundan əvvəl səngərlərdə olarkən bu binanı binoklla gördüyünü, sözlə ifadəsi çətin, mümkün olmayan hisslər keçirdiyini xatırladı: "Öz torpağımızda öz şəhərimizi, bax o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də, tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq".

### Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq



Dekabrın 23-də isə Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında oldu, müqəddəs bayrağımızı ucaltdı, əsgərlərimizlə görüşdü. Dövlət başçısının doğum günündən bir gün öncə işğaldan azad edilmiş torpaqlarımıza səfər etməsi 59 yaşını unudulmaz bir tarixə çevirdi.

Ölkə rəhbəri özü sükan arxasında əyləşərək yol boyunca rayonları seyr etdi, ermənilərin kəndlərimizi viran qoymalarından hiddətləndi, eyni zamanda Qarabağın gözəlliyinə bir daha heyran oldu.

İlham Əliyevin Qubadlı rayonuna səfəri zamanı Qəzyan kəndinin adının ermənicə yazıldığı lövhəni görərək onu sökdürməsi və tapdalaması xüsusilə diqqət çəkdi. Bu maraqlı epizodu İkinci Dünya müharibəsinin sonunda sovet əsgərlərinin alman bayraqlarını paradda ayaqlar altına atıb tapdaması kadrları ilə müqayisə edilir. Bəli, məğlub edilmiş düşmənin simvollarını, nişanələrini ayaq altına atıb tapdalamaq da müharibənin bir tərkib hissəsi, bir fraqmentidir. Bunlar ondan ötrüdür ki, düşmən psixoloji travma alsın, qüruru yerlə bir olsun.

Təbii ki, Prezident çıxışı zamanı Ermənistana birbaşa mesaj verməyi də unutmadı: "Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar".

Dövlət rəhbəri vurğuladı ki, biz qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma bir neçə ildən sonra erməni faşizminin yenə baş qaldırmayacağına heç kim təminat verə bilməz. Ona görə Azərbaycan dövləti və ordusu həmişə güclü olmalıdır: "Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik".

Bu səfər zamanı hər kəs tərəfindən böyük maraqla qarşılanan bir kadr da İlham Əliyevin əlində Qubadlı məhsulu olan xurma tutaraq görüntülənməsi oldu. Bu kadr işğal bitəndən sonra yenidən öz sərvətlərimizə sahiblənməyimizin rəmzi görüntüsüdür.

Prezidentin səfəri zamanı çəkilən video və fotolar sosial şəbəkələrdə paylaşılaraq böyük rəğbət və sevgi, xoş ifadələr ilə qarşılandı. Ali Baş Komandanın əsgərlərlə səmimi münasibəti hər kəs tərəfindən bəyənildi, yüksək dəyərləndirildi. Əsgərlərimizlə birlikdə "Qarabağ Azərbaycandır!" deməsi onların mənəvi ruh yüksəkliyini daha da artırdı.

İlham Əliyev bu səfərində də erməni faşistləri tərəfindən dağıdılıb viranə qalmış yurdlarımızı ürəkağrısı ilə seyr etdi, amma qətiyyətlə bildirdi ki, tezliklə bütün bu yerlər abadlaşdırılacaq, Qarabağa yeni həyat bəxş ediləcək və məcburi köçkünlərin hər biri öz doğma yurduna dönəcək.

Səfərin sonunda dövlət başçısı Bakıya dönərkən bu fikirləri bildirdi: "Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, inşallah".

Bu, Prezidentimizin 2020-ci ilin sonunda işğaldan azad olunan rayonlarımıza son səfəri oldu.

### 39 ildən sonra Şuşaya tarixi qayıdış

2021-ci ilin ilk ayında da dövlət rəhbəri səfər etdi. Özü də Qarabağın tacı sayılan Şuşaya... Və bu dəfə yenə tək deyildi, birinci xanım Mehriban Əliyeva, eləcə də qızları Leyla Əliyeva ilə birlikdə...

Yanvarın 14-də Prezident öncə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu. Sonra Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərinə yola düşdü. Avtomobili özü idarə edən dövlət başçısı Şuşaya Qələbə yolu ilə getdi: "Baxın Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, Qələbəyə aparan yoldur.

Bu yol heç vaxt olmayıb. Qəhrəman hərbçilərimiz bu ərazilərdən keçib. Biz isə cəmi iki ay ərzində bu yolu açmışıq. Sonra, əlbəttə ki, yol genişləndiriləcək və asfalt döşənəcək. Azərbaycan vətəndaşları Şuşaya rahat gedəcəklər".

Şuşada hərbçilər qarşısında çıxış edən Ali Baş Komandan noyabrın 8-nin xalqımızın tarixində əbədi qalacağını bildirdi.

Bəli, Şuşanın işğaldan azad edilməsi xalqımızın qəhrəmanlıq tarixində xüsusi yer tutacaq. Demək olar kı, əlbəyaxa döyüşlərlə azad edilən Şuşa şəhəri düşmənə vurulan ən böyük zərbə idi. Bu tarixi hadisə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm qələbəsidir. Müharibənin gedişində Prezident Şuşanın azad edilməsinə qarşı bütün təzyiqlərə mərdliklə sinə gərdi, əsl liderlik, mərdlik, cəsarət nümunəsi ortaya qoydu. Şəhərin işğalçılardan təmizlənməsi həm də müharibənin nəticəsinə təsir edən sonuncu mərhələ oldu. Təsadüfi deyil ki, məhz noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təsis edildi.

Dövlət rəhbəri Şuşa əməliyyatının aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacağına əminliyini vurğuladı. Çünki inkişaf etmiş bir çox ölkələrin mütəxəssislərinin 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil etmələrinə dair artıq məlumatlar da var: "...44 günlük müharibənin hər bir günü zəfər günü idi. Hər gün biz qabağa gedirdik. Bir gün belə geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda müşahidə edilən bir mənzərədir. Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarca yaşayış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik..."

Ali Baş Komandan Ermənistandakı revanşist qüvvələrə Şuşadan ciddi xəbərdarlıq edərək bildirdi ki, onlar yenidən baş qaldırsalar, bir daha "Dəmir yumruq"la üzləşəcəklər.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı məscidini ziyarət etdilər. Dövlət başçısı məscidə "Qurani-Şərif" hədiyyə etdi.

Səfər zamanı diqqəti çəkən digər maraqlı məqam Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün büstlərinin Prezident tərəfindən Bakıdan Şuşaya gətirilməsi, əvvəlki yerlərinə qoyulması oldu.

Prezident Şuşada qeyd etdi ki, Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev 1982-ci ilin yay aylarında özü şəxsən açıb: "Mən də o vaxt atamla birlikdə burada idim. Bax buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və Ulu Öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi".

Dövlət başçısı, birinci xanım və qızları Leyla Natəvan bulağının qarşısına gəldilər. Xurşidbanu Natəvanın sarayının önündə xatirə şəkli çəkdirdilər. Bülbülün dağıdılmış ev-muzeyinə baxdılar. Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidlərini ziyarət etdilər. Prezident İlham Əliyev bu məscidlərə də "Qurani-Şərif" bağışladı.

Sonra vaxtilə Molla Pənah Vaqifin büstünün olduğu yerə gəldilər. Məqbərənin qarşısında çıxış edən ölkə rəhbəri xatırlatdı ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olub: "Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlarda var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü Ulu Öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı..."

Şuşaya səfəri çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə də oldular. Burada paxlava ilə çay içdilər: "Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər, - bütün dünya artıq bundan xəbərdardır, - "Yallı" getmişlər. İzi-tozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi".

Bəli, illərdir Cıdır düzündə kef məclisləri təşkil edən, yallı gedən Ermənistan rəhbərliyi İlham Əliyevin Şuşadan rəsmi İrəvana göndərdiyi bütün bu mesajları sakitcə dinləmək məcburiyyətində qaldı.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanın qalib Ordunun sərkərdəsi kimi tarixi Şuşa şəhərinə səfəri Ermənistanın ürəyinə saplanan xəncər oldu.

Dövlət başçısı 39 ildən sonra Şuşaya yenidən və məhz yanvarın 14-də qayıtdı. Bu dəfə düşmənin belini qıran qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi...

Prezidentin ölkənin birinci xanımı ilə birgə işğaldan azad olunmuş rayonlara artıq ənənə halını almış səfərləri qələbənin rəsmiləşdirilməsi deməkdir. "Qarabağ Azərbaycandır və nida", - deyən Prezident İlham Əliyev Qarabağa səfərləri ilə həmin nidanı qoymuş oldu.

İlham Əliyev dediyini etdi, Qarabağı Azərbaycana qaytardı. Qarşıdan isə növbəti vədlərin yerinə yetirilmə zamanı gəlir. Torpaqlarımız bərpa ediləndən sonra məcburi köçkünlərin öz doğma yurdlarına möhtəşəm qayıdışı baş verəcək. Prezident Qarabağa növbəti səfərləri zamanı bu torpaqlarda yeni şəhər və qəsəbələrin, infrastrukturların, sosial obyektlərin və müxtəlif müəssisələrin açılışlarını da edəcəkdir.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Rəqəmsal məşğulluq xidmətlərinin tətbiqi bu il daha geniş miqyas alacaq

“Dövlət məşğulluq xidmətlərinin elektron infrastrukturunun qurulması, rəqəmsal məşğulluq xidmətlərinin tətbiqi prosesi bu il daha geniş miqyas alacaq. İşsiz və işaxtaran şəxslər, işəgötürənlər üçün həmin xidmətlərin e-platformalardan təqdim olunmasında 2021-ci ildə bir sıra yeniliklər olacaq”.



Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli “Rəqəmsal məşğulluğa keçid və aktiv məşğulluq tədbirləri: 2021-ci il üçün hədəflər” mövzusunda keçirdiyi mətbuat konfransında bildirib.

O vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq dövlət sosial xidmətləri, o cümlədən məşğulluq xidmətləri sistemində geniş vüsət alan elektronlaşma proqramı bu sahədə müasir, çevik, eyni zamanda şəffaf idarəçiliyin və xidmətlərin formalaşmasına yönəlib. Artıq ölkə üzrə bütün vakansiyalar “Məşğulluq” altsistemində (MAS) toplanır. İşəgötürənlərin hesabatları kağız üzərində təqdim etməsi praktikası ləğv edilərək, bu proses elektron müstəviyə keçirilib. İşsiz və işaxtaran şəxslərin qeydiyyatı prosesi elektronlaşdırılıb, elektron fərdi məşğulluq proqramının tərtibatına başlanılıb.

M.Abbasbəyli “Əmək münasibətləri və məşğulluq” altsistemi - ƏMAS adlı vahid əmək münasibətləri platformasının da qurulmaqda olduğunu deyib.

Diqqətə çatdırıb ki, ölkənin məşğulluq xəritəsi, məşğul şəxslərin ölkə üzrə reyestri, qeyri-formal məşğulluğa nəzarət informasiya ehtiyatı, səyyar yoxlama və monitorinq sistemi də yaradılır. E-əmək birjası və yarmarkası, ictimai işlər portalı (works.gov.az) və BACAR innovativ platforması üzrə işlərə də başlanılıb.

Agentliyin sədri qeyd edib ki, bu elektron xidmətlər ölkənin insan resursları əməliyyatlarının tamamilə elektron müstəviyə keçidini təmin edəcək. Bununla inzibati ərazi vahidləri üzrə əsas məşğulluq, demoqrafik, peşə ixtisasları və əmək ehtiyatları balansı göstəriciləri, qeyri-formal məşğulluq sahəsində nəzarət və risk əsaslı yoxlamalar, haqqı ödənilən ictimai işlərin vahid platformada toplanması, təlim, peşəyönümü və peşə hazırlığı fəaliyyəti onlayn müstəviyə daşınacaq.

M.Abbasbəyli 2021-ci ildə də işsiz və işaxtaran şəxslər üçün dəstək tədbirlərinin əhatə dairəsinin genişlənəcəyini deyib. 16 min şəxsin özünüməşğulluq proqramına cəlb ediləcəyini qeyd edib.

## Üzümçülüyün inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramının icra müddəti sona çatıb



### Nəticələr nədən xəbər verir

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə iqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi çərçivəsində qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafının təmin edilməsi əsas iqtisadi prioritetlərdəndir. Üzümçülük isə aqrar sektorda iqtisadi baxımdan ən gəlirli sahələrdən biridir. Müasir dövrdə Azərbaycanda üzüm istehsalı üçün yararlı torpaq şəraitinə malik olan təbii-iqtisadi bölgələrin mövcudluğu, üzümün digər bitkiçilik məhsullarına nisbətən yüksək iqtisadi səmərəliliyi, ərazidə yerli üzüm sortlarının zəngin genofondu, mövcud işçi qüvvəsi, üzüm emalı sənayesi müəssisələrinin yerli xammala olan tələbatının ödənilməsi, həmçinin dünya bazarlarına yüksək keyfiyyətli ekoloji təmiz süfrə üzümü və müxtəlif şərab məhsullarının çıxarılması imkanları üzümçülüyün yenidən genişləndirilməsi problemini aktuallaşdırmışdır. Məhz buna görə müvafiq dövlət proqramlarında ölkə ərazisində üzümçülüyün yenidən inkişaf etdirilməsi prioritet vəzifə kimi qarşıya qoyulmuşdur.

Bu yerdə yaxın keçmişə nəzər salaq: keçən əsrin 70-80-ci illərində Azərbaycanda irimiqyaslı üzüm plantasiyaları salınmış və 1984-cü ildə üzümlüklərin əkin sahəsi 284,1 min hektara, üzüm yığımı 2126,1 min tona, hektardan məhsularlıq isə ən yüksək həddə - 99,2 sentnerə çatmışdır.

Lakin 1985-ci ildə alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri ilə bağlı qəbul edilmiş məlum qərardan sonra Azərbaycanın aqrar sektorunda aparıcı sahə olan üzümçülük və şərabçılığa böyük zərbə vurularaq, 130 min hektardan çox məhsuldar üzüm bağları məhv edilmiş, 76 istehsal, 116 ilkin emal müəssisəsi fəaliyyətini dayandırmışdır. Sonrakı illərdə respublikamızda üzüm istehsalı ildən-ilə azalmağa başlamışdır. 1988-ci ildə 195,4 min hektardan 1254,3 min, 1990-cı ildə 181,4 min hektardan 1196,4 min, 1995-ci ildə isə 97,7 min hektar üzümlüklərdən 308,7 min ton məhsul toplanmışdır.

Yalnız qeyd etdiyimiz sənəd - “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” ölkədə üzümçülüyün inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Dövlət proqramında ölkə ərazisində müasir tipli yeni plantasiyaların salınması, kişmişi, süfrə və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, tingçilik təsərrüfatlarının yaradılması, üzümçülük təsərrüfatları üçün əsas və köməkçi materialların istehsalının təşkili və başqa vəzifələr irəli sürülmüşdür. Sənəddə Azərbaycanda üzümçülük və şərabçılığın inkişafının mövcud vəziyyəti, nəzərdə tutulan görüləcək işlərin məqsəd və vəzifələri, üzümçülüyün və şərabçılığın inkişafının əsas istiqamətləri, maliyyələşmə mənbələri, gözlənilən nəticələr, nəzərdə tutulan işlərin həyata keçirilməsi üzrə tədbirlər planı hazırlanmış və uğurla həyata keçirilməsinə başlanılmışdır. Üstündən 8 il keçdikdən sonra nəticələrə nəzər salaq: əgər 2012-ci ildə Azərbaycanda üzüm bağlarının ümumi əkin sahəsi 16,3 min hektar, məhsul yığımı 151 min ton, məhsuldarlıq 88,6 sentner olmuşdursa, 2018-ci ildə üzüm bağlarının əkin sahəsi 16,1 min hektar olmaqla toplanılan məhsul artaraq 167,6 min tona, məhsuldarlıq 92,8 sentnerə çatmışdır. 2020-ci ildə isə 16,1 min hektar üzüm bağından 201,5 min ton məhsul toplanmışdır.

Qeyd edək ki, bu illərdə daha çox üzüm bağları Gəncə-Qazax rayonunda (4041,1 hektar), Dağlıq Şirvan bölgəsində (3107,1 hektar), Lənkəran inzibati ərazisində (1620,0 hektar), Naxçıvan MR-də (1445,6 hektar) salınmışdır. Ölkədə yeni salınan üzümlüklərin 10,580 hektarı süfrə, 5506,3 hektarı texniki sortlardan ibarətdir.

Bu illər üzüm məhsullarının ixracına da diqqət artmışdır. Belə ki, 2019-cu ildə Azərbaycandan xarici ölkələrə 4168,3 ton (Rusiya Federasiyasına 4066,78, Ukraynaya 83,42, Qazaxıstana 14,21, Birləşmiş Ərəb Əmirliklərinə isə 3,9 ton) üzüm ixrac olunmuşdur.

Üzümçülük iqtisadi baxımdan gəlirli sahədir. Bir hektar üzüm bağından əldə olunan maddi gəlir müvafiq olaraq pambıqdan 2,7, dənli-paxlalı bitkilərindən 3,9, tərəvəz bitkilərindən 1,5, bostan bitkilərindən 7,5, meyvə bağlarından 2,6 dəfə yüksəkdir. Azərbaycanın coğrafi ərazisi, təbii torpaq-iqlim qurşaqları isə üzüm plantasiyalarının maksimum sahəsinin 150 min hektara qədər artırılmasına, ildə yüksəkkeyfiyyətli 1-1,2 milyon ton üzüm istehsalına imkan verir. Üstəlik, işğaldan azad olunmuş cənub rayonlarımız üzümçülüyün genişləndirilməsi imkanlarını artırmışdır. Belə olan halda bu sahədən əldə edə biləcəyimiz qazancı hesablamaq çətin deyil.

Sözügedən dövlət proqramı çərçivəsində digər mühüm işlər də görülmüşdür. Məsələn, bu dövr ərzində Abşeronda, Naxçıvan MR-də, Şamaxıda, Cəlilabadda, Gəncə-Qazax və digər üzümçülük bölgələrində müasir tipli yeni üzüm plantasiyaları salınmış, aqrotexniki qulluq istiqamətində yeni texnologiyanın tətbiqinə başlanılmış, çoxlu sayda modul tipli şərab zavodları yaradılmış, əhalinin süfrə və qurudulmuş məhsullarla təminatı yaxşılaşdırılmış, emal sənayesi müəssisələrinin xammala olan tələbatının daxili məhsul istehsalı hesabına ödənilməsi təmin edilmiş, kənd əhalisinin maddi gəlirlərinin artmasına nail olunmuş, dövlət büdcəsinə və yerli büdcəyə daxil olan maddi vəsaitin həcmi artmış, üzümçülük bölgələrində yaşayan əhalinin maddi-rifah və sosial şəraiti yaxşılaşdırılmaqla kənd yerlərində yeni iş yerləri yaradılmışdır.

Son dövrlər Naxçıvan MR ərazisində də üzümçülüyün genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bu baxımdan Nehrəm kəndi inzibatı ərazisinin şərq hissəsində indiyə qədən ictifadəsiz qalan təpəliklərin şumlanaraq əkinə yararlı hala gətirilməsi nəticəsində 170 hektardan çox müasir tipli süfrə üzümü plantasiyalarının salınması dövlət proqramının icrasına layiqli töhfə olmuşdur.

O ki qaldı “2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”na, bu sənəd aqrar-sənaye kompleksinin ən rentabelli və ən qədim sahələrindən olan şərabçılığın innovativ texnologiya əsasında inkişafına yönəlmişdir. Yenə də tarixə nəzər salaq: keçən əsrin 80-ci illərində respublikada 210 şərab zavodu və şərabçılıq məntəqələri sistemində 151 mindən artıq fəhlə və mütəxəssis işləmiş, 56 adda şərab, 10 adda konyak, 4 adda şampan şərabı və digər məhsullar istehsal olunmuşdur.

Bu gün də ölkədə şərabçılığın inkişafı qarşıda duran əsas hədəflərdən biridir. Dünyada yüksəkkeyfiyyətli şərab istehsalında istifadə olunan texniki üzüm sortlarından Bayanşirə, Mədrəsə, Hənəqirna, Şirvanşahı, Xindoqnı, Həməşərə, Mələyi, Xərci, Qara aldərə, Naxçıvan qara üzümü, Dəvəgözü və başqaları məhz Azərbaycanın üzüm genofonduna mənsubdur. Elə dövlət proqramının da məqsədi bu cür məşhur sortların hesabına 2025-ci ilə qədər ölkədə şərab və şərabçılıq məhsullarına tələbatın ortamüddətli perspektivdə yerli ehtiyac və ixracat imkanları nəzərə alınmaqla ödənilməsi, şərab istehsalı müəssisələrinin fəaliyyətinin genişləndirilməsidir. Dövlət proqramında həmçinin şərabçılıq müəssisələrinin istehsal potensialından maksimum istifadə etməklə dünya standartlarına uyğun şərab məhsullarının ixracının 2025-ci ilədək 5 dəfə artırılması nəzərdə tutulmuşdur. Heç şübhəsiz ki, ölkənin aqrar sektorunda aparılan islahatlar və dövlət tərəfindən verilən dəstək hesabına bu proqramda da qarşıya qoyulan vəzifələr yerinə yetiriləcək.

***Varis QULİYEV,***
***AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşı, aqrar elmləri doktoru***

## “Keşikçidağ” qoruğuna yeni avtomobil yolu çəkilir



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Ağstafa rayonunda “Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğuna gedən yeni avtomobil yolunun inşasına start verilib. Bu yol başlanğıcını yerli əhəmiyyətli Ağstafa-Poylu-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 38-ci kilometrliyindən götürür.

İkinci texniki dərəcəyə uyğun olaraq inşa edilən avtomobil yolunun uzunluğu 32 kilometrdir. Layihə çərçivəsində yolun torpaq yatağının eni 15, asfalt-beton örtüyünün eni isə 9 metrdir.

Hazırda yeni yolboyu yararsız hissələr çıxarılır, əvəzinə yararlı çınqıl materialı tökülür və kipləşdirmə işləri aparılaraq yeni yol yatağı inşa edilir. Bundan başqa, yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün işlər görülür, yolun normativ eninin alınması üçün müəyyən hissələrdə qaya tipli süxurlar kəsilərək yol yatağı genişləndirilir. Bu işlərə paralel yolun altından suların ötürülməsi üçün yeni suötürücü boruların quraşdırılması, həmçinin digər süni qurğuların inşası işləri də icra olunur.

Layihənin sonuncu mərhələsində avtobus dayanacaqlarının inşası, avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədi ilə yol nişanı, məsafə göstəricisi və məlumatverici lövhələrin, həmçinin siqnal dirəklərinin quraşdırılması işlərinin aparılması nəzərdə tutulur.

Təxminən VI əsrə aid edilən “Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğunun turizm əhəmiyyəti nəzərə alınaraq və turistlərin bu abidəni ziyarət etməsini asanlaşdırmaq üçün inşa edilən yeni avtomobil yolu regionun potensial imkanlarının genişləndirilməsi və turizmin inkişafı baxımından önəmli rola malikdir. Layihənin reallaşması yeni turizm marşrutlarının yaranmasına da şərait yaradacaq.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Pandemiyadan zərərçəkmiş sahibkarların güzəştli mexanizmlər çərçivəsində kreditləşdirilməsi davam edir

Məlumat verildiyi kimi, kredit-zəmanət mexanizmi çərçivəsində yeni biznes kreditlərinin verilməsi məqsədilə müraciətlərin onlayn rejimdə qəbul edilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən Elektron Kredit Platforması (www.e-edf.gov.az) yaradılıb və 2020-ci ilin 30 iyun tarixindən sahibkarların istifadəsinə verilib.

Hazırda kredit sifarişlərinə qısa zaman ərzində baxılması, müraciətlərin qəbulu, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu və kredit təşkilatları tərəfindən təhlillərin aparılması və qərarların sahibkarlara çatdırılması ilk dəfə tətbiq olunan bu platforma vasitəsilə həyata keçirilir.

Biznes kreditlərinin Elektron Kredit Platforması vasitəsilə verilməsi sahibkarlar üçün bir sıra üstünlüklər yaradır. Belə ki, sahibkarlar kredit üçün onlayn rejimdə müraciət edir, onların müraciətlərinə İqtisadiyyat Nazirliyində və müvəkkil kredit təşkilatlarında eyni vaxtda baxılır, eləcə də müraciətlərin statusunun real vaxt rejimində izlənməsi imkanı yaradılır. Elektron Kredit Platformasının tətbiqi ilə həmçinin kreditlərin əldə olunmasında çeviklik və şəffaflıq, sahibkarlar üçün bərabər şərait təmin edilir, sağlam rəqabət mühiti formalaşdırılır, sahibkarların kreditlərə çıxış imkanları genişləndirilir, vaxta və xərclərə qənaət olunur.

Qeyd edək ki, ötən il Elektron Kredit Platforması üzərindən yeni biznes krediti sifarişi 949 milyon manat olan 3300-dən çox müraciət daxil olub. Artıq bir sıra müraciətlərə baxılıb və 529 müraciət üzrə ümumi həcmi 169 milyon manat olan dövlət zəmanətli kreditlərin ayrılması barədə qərarlar qəbul edilib və bundan 369 müraciət üzrə 130 milyon manat kreditə 74.8 milyon manat məbləğində dövlət zəmanəti verilib.

Hazırda digər müraciətlərə baxılır və müəyyən olunmuş müddətdə (sürətli və ənənəvi kreditlər üzrə müvafiq olaraq 7 və 10 iş günü ərzində) nəticələr barədə sahibkarlara platforma vasitəsilə məlumat veriləcəkdir.

2020-ci ildən tətbiq edilən digər mexanizmə uyğun olaraq, pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların dövlət zəmanəti olmayan mövcud 1 milyard manat kredit portfeli üzrə 10 mart 2020-ci il tarixinədək manatla aldıqları kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi mart ayından başlayaraq 12 ay ərzində dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm kreditlərin müddətindən və faiz dərəcəsindən asılı olmayaraq tətbiq edilir. Artıq bu mexanizm çərçivəsində kredit qalığı 483 milyon manat 1992 müraciət üzrə 33 milyon manat faiz subsidiyasının verilməsi barədə qərarlar qəbul edilib və bunlardan 1365-i üzrə 20 milyon manat subsidiya ödənişi həyata keçirilib.

Bu mexanizmin icrası üzrə də işlər davam edir.

## DOST Mərkəzi qazi ailəsinə dəstək göstərir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyinin 1 saylı Bakı DOST Mərkəzinin əməkdaşları Qarabağ müharibəsi iştirakçısı Kənan Məmmədovu evində ziyarət ediblər.

DOST
DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ

Beş nəfərdən ibarət ailənin başçısı olan Kənan Məmmədovun səhhətində yaranmış problemlərlə bağlı onun əlilliyinin qiymətləndirilməsi üçün müvafiq müraciət prosedurunun sürətli şəkildə həyata keçirilməsində mərkəz ona öz dəstəyini göstərəcək.

Həmçinin qazinin həyat yoldaşının məşğulluğunun təmin edilməsinə kömək göstərilir.

Ailəyə bildirilib ki, DOST Agentliyi onların ehtiyaclarının qarşılanması üçün dövlət dəstəyi tədbirləri çərçivəsində istənilən köməyi göstərəcək.

## “Əmək müqaviləsi bildirişi” e-sistemində 12 mindən çox əcnəbi ilə müqavilə bildirişi qeydiyyatdadır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Əmək müqaviləsi bildirişi” e-sistemində qeydiyyatda olan əmək müqaviləsi bildirişlərinin 12 366-sı xarici ölkələrin vətəndaşları ilə bağlanan müqavilələrə aiddir.




Onlardan 3890-ı Türkiyə vətəndaşları ilə bağlanan əmək müqavilələridir. Həmçinin qeyd edilən müqavilələrdən 2373-ü Gürcüstan, 1480-i Rusiya, 795-i İran, 390-ı Ukrayna, 361-i Pakistan, 355-i Hindistan, 306-sı Birləşmiş Krallıq, 249-u Qazaxıstan vətəndaşları ilə bağlanıb.

Qalanları isə Çin, Özbəkistan, İtaliya, Banqladeş, Filippin, Türkmənistan, Amerika Birləşmiş Ştatları, Zimbabve, Trinidad, Sudan, Kuba, Kosta-Rika və s. ölkələrdən gələrək işləyənlərlə bağlanan müqavilələrdir. Ümumilikdə, e-sistemdə 110 ölkədən gəlmiş əcnəbi ilə əmək müqaviləsi bildirişləri mövcuddur.

## Salyanlılar kommunal xidmətlərdən razılıq edirlər

Qışın oğlan çağıdır. Havalar tez-tez dəyişir. Gah duman, çən gəlir, gah da yağış, qar yağır. Arana düşən qar ərisə də, dağlarda, quzeylərdə ömrünü uzadır. Bütün bunlar ayrı-ayrı sahələrdə müəyyən çətinliklər yaratsa da, ümumilikdə xeyirdir. Bunu bilən əhali qışın sərt, qarlı-şaxtalı keçməsini arzulayır. Bilir ki, evində işığı, təbii qazı və içməli suyu olsa, çətinlik çəkməyəcək.

Bu gün nəinki şəhərlərdə, rayon mərkəzlərində, habelə kəndlərdə əhali gün ərzində keyfiyyətli elektrik enerjisi alır, əvvəlki kimi qrafiklər, açılmalar, kəsilmələr yoxdur. Bu da təsadüfi deyil. Azərbaycan qısa vaxtda elektrik enerjisi idxal edən ölkədən onun ixracatçısına çevrilmişdir. Azərbaycan qazı indi Avropa ölkələrinə nəql edilir. Yeni içməli su xətlərinin çəkilməsi, bunun üçün müvafiq qurğuların quraşdırılması nəticəsində xüsusilə Muğan zonasında camaatımızın içməli su təminatı əsaslı şəkildə yaxşılaşmışdır. Bütün bunlar adamlarda xoş ovqat, məmnunluq hissi yaradır. Nisbətən yaşlı adamlar söhbət düşəndə göstərilən sahələrdə heç vaxt belə təminatın olmadığını deyirlər.

Sabir Kərimov uzun illərdir ki, Salyan Raon Mərkəzi Uşaq Xəstəxanasına rəhbərlik edir. Sözügedən məsələ ilə bağlı öz fikirlərini bizimlə bölüşdü: “Yaxşı zamanda yaşayırıq. Azərbaycan inkişaf edir, möhkəmlənir. 44 gönlük Vətən müharibəsi bunu aydın göstərdi. Ən müasir silahlarla təchiz edilmiş ordumuz erməni işğalçılarını torpaqlarımızdan qovub çıxartdı. Bu müharibə xalqımızın birliyini, mübarizliyini bir daha dünyaya nümayiş etdirdi. İnkişaf, tərəqqi ölkəmizdə bütün sahələrdə vardır. Səhiyyəmiz durmadan inkişaf edir. Adamlarımızın sosial vəziyyəti ildən-ilə yaxşılaşır. SSRİ-dən sonra insanların işıq, təbii qaz, işməli su ilə təminatında da kəskin problemlər vardı. Gün ərzində 5-6 saat elektrik enerjisi verilirdi, o da aşağı gücdə. Gərginliyin az olması ucbatından elektrik avadanlıqları tez-tez yanıb sıradan çıxırdı. Yalnız şəhərlərə, rayon mərkəzlərinə qaz xətti çəkilmişdi, amma aylarla qaz verilmirdi. O vaxt kondisioner, kombi qızdırıcı sistemi haqda adamlarda təsəvvür belə yox idi. İndi isə başqa dövrdür, bunlarsız yaşamaq mümkün deyil”.

Maisə Abdullayeva isə belə deyir: “İşıq, qaz, içməli su təminatı hər bir ölkənin, xalqın həyatında yaşayış səviyyəsini müəyyən edən başlıca amildir. Tanrıya şükürlər olsun ki, indi onlar sarıdan problemimiz yoxdur. Yaşadığım Salyan şəhərində əhali davamlı və keyfiyyətli işıq, qaz və içməli su sarıdan heç bir korluq çəkmir”.



Bəli, ölkəmizdə kifayət qədər işıq və təbii qaz vardır. Onu abonentlərə vaxtında və keyfiyyətli çatdırmaq isə “Azərenerji”, “Azəriqaz” və “Azərsu”nun, habelə onların yerlərdəki təşkilatlarının işi və vəzifəsidir. Bu qış aylarında onların işi daha çətin olur. Hələlik Salyanda əhali bu çətinliyi elə də hiss etmir. İnanmaq istərdik ki, qışın ən sərt ayı sayılan fevralda da belə olacaq, kiçik çilə həm əhaliyə, həm də kommunal xidmət qurumlarına böyük problemlər yaşatmayacaq.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

## Hacıqabulda ötən il 15 tondan çox bal istehsal olunub

Hacıqabulda arıçılığın inkişafına xüsusi diqqət yetirildiyindən rayonda ilbəil arı ailələrinin sayı və məhsul istehsalı artır.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dövlətin arıçılığın inkişafına göstərdiyi hərtərəfli dəstək və hər arı ailəsinə görə verilən 10 manat əlavə subsidiya rayonda arı ailəsinin artırılmasına və məhsul istehsalının çoxalmasına müsbət təsir göstərir. Hazırda rayonun ayrı-ayrı arıçılıq təsərrüfatlarında 994 arı ailəsi saxlanılır. Ötən il bu arı ailələrinin hər birindən 15-18 kiloqram götürülməklə, 15 ton 904 kiloqram məhsul əldə edilib. Rayon üzrə balın yarıdan çoxu rayonun Meyniman və Ələtli inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə fəaliyyət göstərən arıçılar tərəfindən istehsal olunub.

## Biz birlikdə güclüyük!

# Ölkəmizdə koronavirusla bağlı müsbət tendensiya izlənilir

*Əvvəli 1-ci səh.*

"RİA Novosti" agentliyinin nüfuzlu "Gallup İnternational"ın (Müstəqil Tədqiqat Agentliklərinin Beynəlxalq Assosiasiyası) apardığı araşdırmaya istinadən yaydığı məlumatda da Azərbaycan vətəndaşlarının hökumətin COVID-19-a qarşı həyata keçirdiyi mübarizə tədbirlərindən razı olduğu əksini tapıb. Belə ki, noyabr-dekabr aylarında "Gallup İnternational" müxtəlif ölkələrdən olan insanların 2021-ci il üçün gözləntiləri barədə sorğu keçirib. Layihə çərçivəsində 47 ölkədə 44 mindən çox insanın fikri dinlənilib. Xüsusilə respondentlərdən koronavirusla mübarizədə hökumətin fəaliyyəti ilə bağlı fikirləri öyrənilib.

Araşdırmalardan məlum olub ki, ümumilikdə dünya əhalisinin 54 faizi vətəndaşı olduğu dövlətin koronavirus pandemiyası ilə uğurla mübarizə apardığına inanır, 42 faiz bu fikirləri bölüşmür. "Gallup İnternational"ın tədqiqatında bildirilib: "Hökumətin pandemiyaya qarşı apardığı mübarizə ilə Vyetnam (100 faiz), Koreya (89 faiz), Hindistan və Azərbaycan (hər biri 86 faiz) sakinləri razıdır". Sorğudan məlum olub ki, hökumətin gördüyü tədbirlərdən ən çox narazı qalan Ukrayna (77 faiz), Bosniya və Herseqovina (75 faiz), ABŞ (67 faiz) sakinləridir.

Bununla belə, təcrübələr göstərir ki, arxayınlaşmaq yenidən vəziyyətin mürəkkəbləşməsinə səbəb ola bilər.

Ölkəmizdə koronovirusla bağlı müsbət tendensiyanın əldə olunması, virusa yoluxma və ölüm sayında müşahidə edilən azalmalar karantin rejimində bir sıra yumşaldılmaların tətbiqi ilə nəticələnib. Sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin müəyyən qismi yanvarın 18-dən yumşaldılıb. Belə ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, həmin tarixdən 5 şəhər və 12 rayonda yaşayış yerini və olduğu yeri SMS icazə, icaze.e-gov.az portalı və xidməti vəsiqə əsasında tərk etmək sistemi ləğv edilib. Həmçinin muzey və sərgi zallarının, ticarət obyektlərinin (ictimai iaşə obyektləri, kafe, çay evləri və bu kimi məkanlarda müştərilərə yerində xidmət və iri ticarət mərkəzlərinin, "Mall"ların fəaliyyəti istisna olunmaqla), bərbərxanaların, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərə, şəhərlərarası və rayonlararası hərəkətə isə yanvarın 25-dən icazə verilib.

Ümumtəhsil müəssisələrində isə fevralın 1-dən əyani tədrisin mərhələli şəkildə bərpa edilməsi qərara alınıb.

Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət isə qüvvədə qalıb. Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət, eləcə də digər qadağalar xüsusi karantin rejiminin sonunadək tətbiq olunması nəzərdə tutulub. Virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 aprelədək uzadılıb.

Təəssüf ki, yumşalmalar zamanı virusun yenidən aktivləşməsi dünya təcrübəsinin acı nəticələrindəndir. Səbəb isə bir çox vətəndaşın arxayınlaşaraq pandemiyanın şərtlərinə biganə yanaşmalarıdır. Laqeydlik isə sonda hər zaman peşmanlıq gətirir.

Görülən tədbirlər söyləməyə əsas verir ki, Azərbaycan dövləti ölkə ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması üçün zəruru tədbirləri davam etdirir. Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyətin müddətinin martın 29-dək uzadılması da bu tədbirlərdən biridir.

Ölkə vətəndaşlarının da öz məsuliyyətlərini dərk etmələri, maska taxmaları, sosial məsafəni gözləmələri, gigiyena qaydalarına riayət etmələri zəruridir. Bütün bunlar olmadan koronavirusa qarşı əldə olunan nailiyyətləri qoruyub saxlamaq, normal həyata qayıtmaq mümkünsüzdür.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***






## Türkiyə sahilləri yaxınlığında 48 miqrant xilas edilib

Türkiyənin İzmirdəki sahilləri yaxınlığında Yunanıstanın dəniz zonasından zorla çıxarılmış 48 miqrant xilas edilib. Yerli KİV-in xəbərinə görə, sahil mühafizəsi qüvvələri Çeşmə kurort rayonu yaxınlığında 19 miqrantı xilas edib. Daha 29 miqrant isə İzmirdə Dikili rayonu sahilləri yaxınlığında xilas edilib.

Ümumilikdə Türkiyə sahil mühafizəsinin əməkdaşları 48 miqrantı xilas edərək sahilə cıxarıblar. Əcnəbilər İzmir vilayətinin Miqrantların İşləri üzrə İdarəsinə aparılıblar.

# Beynəlxalq aləm

## Kubada hərbi helikopter qəzaya uğrayıb



Kubanın şərqində hərbi helikopterin qəzaya uğraması nəticəsində azı beş nəfər həlak olub. Bu barədə BBC telekanalı xəbər verir.

Helikopter Olgin əyalətindən Quantanamoya yollanırmış. Heyətin beş üzvündən heç biri sağ qalmayıb.

İnqilabi Silahlı Qüvvələr Nazirliyinin komissiyası qəzanın səbəblərini araşdırır.

## Qırğızıstan Prezidentinin Mətbuat xidmətinin rəhbəri saxlanılıb



Qırğızıstan Prezidentinin Mətbuat xidmətinin rəhbəri Nurqazı Anarkulov rüşvət tələb etdiyinə görə saxlanılıb. Bu barədə şənbə günü Dövlət Milli Təhlükəsizlik Komitəsi məlumat yayıb.

Məlumatda bildirilir ki, "saxlanılan şəxs vəzifəsindən sui-istifadə edərək və şəxsi maddi varlanma məqsədi güdərək təyinat məsələsini həll etmək üçün rəhbər dövlət vəzifələrindən birinə iddiaçıdan xüsusilə külli miqdarda pul vəsaiti tələb edib".

Anarkulov barəsində Cinayət Məcəlləsinin "rüşvət alma" maddəsi ilə məhkəməyədək icraat başlanılmışdır. O, ötən ilin payızında Qırğızıstan Prezidentinin Mətbuat xidmətinin rəhbəri vəzifəsinə təyin edilmişdi.

## Əfqanıstanın cənubunda dinc sakinlər həlak oldu

Əfqanıstanın cənubunda Qəndəhar əyalətində baş vermiş partlayış nəticəsində üç dinc sakin həlak olub. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Qəndəhar polisinin Mətbuat katibi Cemal Nasır Barikzey jurnalistlərə bildirib ki, terrorçular Pəncvai qəzasının Səlixan kəndində yolun kənarında bomba yerləşdiriblər.

Yerli hakimiyyət terror aktının arxasında "Taliban"ın dayandığını düşünür.


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC tərəfindən tələb olunan telekommunikasiya qovşaqları üçün müxtəlif güclü dizel-generator qurğularının və elektrik təchizatı sisteminin rekonstruksiyası işlərinin satın alınması.

**İştirak haqqı: 1000 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Azərbaycan Respublikası Dövlət Statistika komitəsindən mikro, kiçik və ya orta sahibkarlıq subyektləri olduğunu təsdiq edən arayış;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 22 fevral 2021-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 02 mart 2021-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 03 mart 2021-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC tərəfindən tələb olunan istismarda olan HPE avadanlıqlarına zəmanət və texniki dəstək xidmətinin satın alınması.

**İştirak haqqı: 500 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Azərbaycan Respublikası Dövlət Statistika komitəsindən mikro, kiçik və ya orta sahibkarlıq subyektləri olduğunu təsdiq edən arayış;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 22 fevral 2021-ci il saat 12:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 02 mart 2021-ci il saat 18:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 03 mart 2021-ci il saat 12:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***


# Ermənistanda Paşinyanın fiziki məhvi üçün çağırışlar edilir

*Əvvəli 1-ci səh.*

Hətta o səviyyəyə gəlib çatıb ki, ölkənin milli təhlükəsizliyinə böyük təhdid yaradır. Bütün məmur ordusu korrupsiya piramidasında yer aldığından bu problemə qarşı mübarizə yalnız kağız üzərindədir və vaxtaşırı verilən quru vədlərdən başqa bir şey deyildir. Korrupsiyaya qarşı strategiya hazırlansa da, təbliğat kampaniyaları aparılsa da, məmur oliqopoliyası reallıqda bu problemlə mübarizənin aparılmasına imkan vermir. Əksinə, indiki siyasi xaosdan istifadə edən məmurlar daha çox vardövlət toplamaq üçün qanunsuzluğa yol verməkdən çəkinmirlər. Buna qarşı çıxanlar elə hakimiyyətin təsir rıçaqları ilə repressiv metodlara məruz qalır.

Bu arada isə Ermənistanda sabiq deputat Vaan Badasyan həbs olunub. Yerevan məhkəməsi Milli Təhlükəsizlik Xidmətinin keçmiş deputat barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı vəsatətini təmin edib. Buna səbəb Badasyanın baş nazir Nikol Paşinyan barəsində fikirləri olub. Yanvarın 28-də jurnalistlərlə söhbət edən Vaan Badasyan deyib ki, baş nazir Nikol Paşinyan hakimiyyətdən getməlidir. "Əgər getməsə, onda biz onu silahın köməyi ilə fiziki şəkildə məhv edəcəyik. Mən prosesi təşkil etməyə başlayacam".

Bundan sonra Vaan Badasyan Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb və Ermənistan Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə ittiham olunub. Göründüyü kimi, Ermənistanda proseslər elə bir məcrada inkişaf edir ki, artıq cinayət məsuliyyəti yaradan çağırışlar edilir. Əslində bu Ermənistan üçün qeyri-adi hal deyil. Elə keçmiş hərbi xunta da hakimiyyəti bu yolla əldə etmişdi.

Bu arada Ermənistanın Vatikandakı sabiq səfiri Mikael Minasyan Ermənistanda ordu günü ilə bağlı sualları cavablandırarkən deyib: "Ordu generallar, zabitlər, əsgərlər, hərbi texnika və mənəvi ruhdan ibarətdir. Bizim isə əsgərdən başqa bir şeyimiz yoxdur. Bir sözlə, bizim ordumuz yoxdur. İnsanlar ordunu bayram münasibətilə təbrik edir, erməni zabitinin şərəfindən və ordunun döyüş qabiliyyətindən danışırlar. Bu dərəcədə özünü aldatmağın mənası nədir? Bunu anlamıram" deyə o bildirib.

Onun sözlərinə görə, ordunun erməni xalqını xarici təsirlərdən qorumaq missiyası var idi: "Bu missiya uğursuz oldu. Ordu ölkəni daxili düşməndən xilas edə bilər. Bunu da etmədi. Yəqin ki, son müharibədə məğlub olmasına baxmayaraq, milli qəhrəman və generallarının sayını artıran yeganə ordu bizik. Orduda xidmət etməyən yüksək rütbəli məmurları, fərarilik edənləri və ordunun nə olduğunu bilməyənləri təbrik edirlər. Ordumuz qalmayıb. Bəziləri Yerablurda istirahət edir, bəziləri ya əsirlikdədir, ya da itkin düşüb. Onları təbrik edə bilmirəm".

Mikael Minasyanın sözlərində həm həqiqət var, həm də yalan. Yalan ondan ibarətdir ki, Ermənistana qarşı hər hansı hərbi xarici müdaxilə olmamışdı. Həqiqət isə odur ki, Ermənistan bəlkə də dünyada yeganə ölkədir ki, məğlub ordusunun zabit və əsgərlərini təltif edib. Amma M.Minasyanın söyləmədiyi bir həqiqət var. Bu da ondan ibarətdir ki, Azərbaycan məhz onun qayınatası, müharibə cinayətkarı və keçmiş prezident S.Sarkisyanın da yaradılmasında iştirak etdiyi işğalçı ordunu darmadağın edib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

**ALLAH RƏHMƏT ELƏSİN!**

Milli Məclisin deputatı Ağalar Vəliyev Milli Məclisin deputatı Anar Məmmədova atası

**İLYAZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Ağalar Vəliyev Dövlət Təhlükəsizlik Xidmətinin məsul işçisi polkovnik

**İLQAR QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5074
Sifariş 185
Qiyməti 40 qəpik